RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 175 (10195) 25 sentyabr 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Ölkəmizdə yerli sahibkarlarla yanaşı, xarici investorlar üçün münbit şərait yaradılıb



### Prezident İlham Əliyev Çin və İtaliya şirkətlərinin rəhbər şəxslərini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Çinin "01.AI" və "Sinovation Ventures" şirkətlərinin baş icraçı direktoru Kei-Fu Lini, İtaliyanın "TEHA Group" şirkətinin Beynəlxalq sammitlər üzrə koordinatoru və Səudiyyə Ərəbistanı üzrə inkişaf rəhbəri Filippo Malinvernonu qəbul edib.**



AZƏRTAC xəbər verir ki, qonaqlar qəbula görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər.

Onlar Prezident İlham Əliyevin himayəsi altında Bakıda keçiriləcək İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda iştirak edəcəklərini dedilər və bu tədbirin əhəmiyyətinə toxundular.

Prezident İlham Əliyev ölkəmizin həm Çin, həm də İtaliya ilə sıx münasibətlərinin olduğunu vurğuladı, hər iki ölkədən olan iş adamlarının Azərbaycana sərmayə yatırdıqlarını bildirdi.

Söhbət zamanı "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"nın təsdiq edildiyi xatırlandı, ölkəmizdə mövcud əlverişli biznes mühitinə toxunuldu, yerli sahibkarlarla yanaşı, xarici investorlar üçün yaradılmış münbit şəraitdən bəhs olundu.

Görüşdə "yaşıl enerji", kibertəhlükəsizlik, təhsil və digər sahələrdə süni intellektin praktiki tətbiqi ilə bağlı fikir mübadiləsi aparıldı, ölkəmizlə bu şirkətlər arasında əməkdaşlıq imkanları müzakirə edildi.

## QLOBAL ETİMADIN TƏZAHÜRÜ

### Donald Trampın BMT-də çıxışı zamanı Prezident İlham Əliyevdən sitat gətirməsi Azərbaycan liderinin yüksək beynəlxalq nüfuzunun göstəricisidir



Dünyanın əsas güc mərkəzlərindən biri olan Amerika Birləşmiş Ştatları Prezidenti Donald Trampın Azərbaycan liderinin fəaliyyətinə verdiyi yüksək qiymət xüsusi vurğulanmalıdır. Donald Trampın müxtəlif beynəlxalq platformalarda, o cümlədən sentyabrın 23-də BMT Baş Assambleyasının 81-ci sessiyasının yüksəksəviyyəli ümumi müzakirələrində çıxışı zamanı Cənubi Qafqazda sülhün və sabitliyin bərqərar olunmasında Azərbaycan Prezidentinin rolu haqqında dedikləri dövlətimizin başçısının beynəlxalq miqyasdakı nüfuzunu bir daha nümayiş etdirib. Tramp çıxışında Prezident İlham Əliyevin sülh prosesindəki rolunu yüksək qiymətləndirərək, dövlətimizin başçısının qısa müddətdə əldə olunan tarixi nəticələrə dair fikirlərinə istinad edib, iki ölkə arasında qarşılıqlı etimadın yüksək səviyyədə olduğunu vurğulayıb.

ABŞ Prezidenti dövlətimizin başçısı İlham Əliyevi güclü və qətiyyətli lider kimi xarakterizə edərək, onunla qurulan şəxsi dostluq və tərəfdaşlıq münasibətlərinə xüsusi önəm verdiyini dəfələrlə ifadə edib. Bundan əlavə, D.Trampın rəsmi sosial şəbəkə hesablarında Azərbaycan Prezidentinin və rəsmi Bakının xarici siyasət kursu, eləcə də Vaşinqton-Bakı tərəfdaşlığı haqqında məqalə və müsahibələri paylaşması Prezident İlham Əliyevin rəylərinin dünya nəhəngləri tərəfindən nə qədər ciddi qəbul edildiyini və yüksək dəyərləndirildiyini göstərir.

ABŞ liderinin Azərbaycan Prezidentinə yüksək etimadı digər Qərb güc mərkəzlərində də eynilə əksini tapır. Avropa İttifaqının rəhbərliyi də Prezident İlham Əliyevin siyasi iradəsini və Azərbaycanın qlobal rolunu açıq şəkildə etiraf edir. Aİ rəsmiləri Azərbaycanı Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı və strateji tərəfdaş adlandırır, "Cənub qaz dəhlizi"nin genişləndirilməsini və "yaşıl enerji" sahəsindəki təşəbbüsləri dövlətimizin başçısının uzaqgörən iqtisadi diplomatiyasının təntənəsi kimi qiymətləndirirlər.

5

## "Əgər onlar bizə hücum etsələr, peşman olacaqlar"



### 2020-ci ildə "dəmir yumruq" işğalçı Ermənistanı qarşısında diz çökdürərək ədaləti bərpa etdi

Xarici havadarlarına güvənərək Bakının xəbərdarlıqlarına məhəl qoymayan Ermənistan 2020-ci il sentyabrın 27-də genişmiqyaslı növbəti hərbi təcavüzə əl atdı. Lakin bu dəfə Azərbaycan beynəlxalq hüquqa əsaslanaraq özünümüdafiə hüququnu tətbiq etdi və əks-hücum əməliyyatına başladı.

44 gün davam edən Vətən müharibəsi Azərbaycanın parlaq qələbəsi ilə başa çatdı. Bununla da "dəmir yumruq" işğalçını peşman etdi. Azərbaycan BMT Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalan qətnamələrini təkbaşına icra etdi, ərazi bütövlüyünü tam təmin etdi.

Prezident İlham Əliyevin 2025-ci ildə BMT Baş Assambleyasının 80-ci sessiyasındakı tarixi çıxışında vurğuladığı kimi: "Uzun illər ərzində mən bu kürsüdən Azərbaycana qarşı törədilmiş təcavüz, işğal və ədalətsizlik faciələri barədə danışmışam. Bu gün isə qələbəyə və sülhə aparan uzun yolumuzdan, Azərbaycan tarixində yeni dövrdən, Vətən müharibəsi ilə işğala necə son qoyulduğundan, sülhü siyasi vasitələrlə necə təmin etməyimizdən danışacağam".

5

## Mineral sərvətlər və "yaşıl gələcək"

### Prezident İlham ƏLİYEV:

### "Maksimum ekoloji ekspertiza aparılmalıdır və bütün ekoloji normalar gözlənilməlidir"

Yeraltı sərvətlərin iqtisadi dövriyyəyə cəlb edilməsi ətraf mühitin qorunması ilə ziddiyyət təşkil etməməlidir. Əksinə, müasir texnologiyaların tətbiqi, yüksək ekoloji standartların təmin edilməsi və davamlı monitorinq sistemlərinin qurulması yeni sənaye imkanlarının yaradılmasını ekoloji dayanıqlılıq prinsipləri ilə uzlaşdırmağa imkan verə bilər. Bu yanaşma hasilatın həcmi ilə yanaşı, onun hansı ekoloji və sosial məsuliyyət çərçivəsində həyata keçirildiyini də sənaye siyasətinin mühüm göstəricisinə çevirir.

6

## *«Formula-1» Azərbaycan Qran-prisi:* Bakı yenidən sürət mərkəzinə çevrilib




8

## Süni intellekt əmək bazarını necə dəyişir?

Beynəlxalq Əmək Təşkilatının (ILO) hesablamalarına görə, dünyada hər dörd işçidən biri generativ süni intellektin müəyyən dərəcədə təsir göstərə biləcəyi peşədə çalışır. Lakin təşkilat vurğulayır ki, əksər hallarda söhbət peşələrin tamamilə yox olmasından deyil, onların daxilində görülən vəzifələrin dəyişməsindən gedir. Başqa sözlə, süni intellekt bir çox iş yerində insanı bütövlükdə əvəz etməkdən daha çox onun gördüyü müəyyən işləri öz üzərinə götürəcək. Dünya İqtisadi Forumunun "Future of Jobs Report 2025" hesabatına görə, texnoloji inkişaf, iqtisadi və demoqrafik dəyişikliklər, "yaşıl keçid" və digər amillərin təsiri ilə 2030-cu ilədək dünyada 170 milyon yeni iş yerinin yaranacağı, eyni zamanda 92 milyon mövcud iş yerinin sıradan çıxacağı proqnozlaşdırılır.



6

## Dövlət ümumi təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrası ilə əlaqədar **qərara alıram**:

1. Dövlət ümumi təhsil müəssisələrində 2026-2027-ci tədris ilindən başlayaraq dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirmə mərhələli şəkildə adambaşına maliyyələşdirmə prinsipi əsasında həyata keçirilsin.

2. Adambaşına maliyyələşdirmə prinsipi əsasında maliyyələşdirilməsi nəzərdə tutulan dövlət ümumi təhsil müəssisələrində ümumi təhsil müəssisələrinin növləri üzrə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına ümumi təhsilin ayrı-ayrı səviyyələri üzrə artım əmsalı tətbiq edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. adambaşına maliyyələşdirmə prinsipi əsasında maliyyələşdirilməsi həyata keçirilən dövlət ümumi təhsil müəssisələrində ümumi təhsil müəssisələrinin növləri üzrə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarını, habelə adambaşına maliyyələşdirmə prinsipi əsasında maliyyələşdirilməsi həyata keçirilən dövlət ümumi təhsil müəssisələrinin dövlət büdcəsindən maliyyələşdirilməsi və hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına ümumi təhsilin ayrı-ayrı səviyyələri üzrə artım əmsalının tətbiq edilməsi qaydalarını bir ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi hər növbəti təqvim ili üçün dövlət büdcəsinin vəsaiti hesabına adambaşına maliyyələşdirmə prinsipi əsasında maliyyələşdirilməsi nəzərdə tutulan dövlət ümumi təhsil müəssisələrinin siyahısını və təhsilalanlarının sayını Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla müəyyən etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın icrasından irəli gələn tədbirlərin dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsini təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 sentyabr 2026-cı il*

## O.M.Muradovun Naxçıvan Muxtar Respublikası Babək Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Ovni Mehbalı oğlu Muradov Naxçıvan Muxtar Respublikası Babək Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 sentyabr 2026-cı il*

## Azərbaycan və Albaniya XİN rəhbərləri gündəliyi müzakirə ediblər

Nyu Yorkda keçirilən BMT Baş Assambleyasının 81-ci yüksəksəviyyəli həftəsi çərçivəsində Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Albaniyanın Avropa və xarici işlər naziri Ferit Hoja ilə görüşüb.



Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, tərəflər ikitərəfli gündəliyi müzakirə edərək, davamlı siyasi dialoqun, yüksəksəviyyəli əlaqələrin və BMT də daxil olmaqla beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin vacibliyini vurğulayıblar.

Nazir C.Bayramov əsas enerji və nəqliyyat bağlantısı layihələri vasitəsilə Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi mühüm töhfələri vurğulayıb. O, həmçinin həmkarını münaqişədən sonrakı regional reallıqlar, regional və beynəlxalq təhlükəsizlik məsələləri, Ermənistanla davam edən sülh səyləri barədə məlumatlandırıb.

## Azərbaycan-Moldova strateji tərəfdaşlığının gündəliyi nəzərdən keçirilib

BMT Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində xarici işlər naziri Ceyhun Bayramov Moldovanın Baş nazirinin müavini, xarici işlər naziri Mihai Popşoi ilə görüşüb.



Xarici İşlər Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə tərəflər Azərbaycan-Moldova strateji tərəfdaşlığının gündəliyini nəzərdən keçirib, yüksəksəviyyəli siyasi dialoqun davam etdirilməsinin, eləcə də beynəlxalq təşkilatlar, o cümlədən BMT və ATƏT çərçivəsində qarşılıqlı dəstəyin daha da dərinləşdirilməsinin vacibliyini vurğulayıblar.

Tərəflər, həmçinin daha geniş regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

## Siyasi məsləhətləşmələrə dair protokol imzalanıb

Xarici işlər naziri Ceyhun Bayramov Nyu Yorkda BMT Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində Sent-Vinsent və Qrenadinin xarici işlər, xarici ticarət, xarici investisiyalar və diaspor məsələləri üzrə naziri Duayt Fits-Cerald Brambl ilə görüşüb.



Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, tərəflər münasibətlərinin mövcud vəziyyəti və perspektivlərini müzakirə edərək, siyasi dialoqun intensivləşdirilməsi, qarşılıqlı təmas və səfərlərin artırılması, həmçinin ikitərəfli əlaqələrin institusional əsaslarının gücləndirilməsinin vacibliyini vurğulayıblar. BMT və Qoşulmama Hərəkatı çərçivəsində çoxtərəfli əməkdaşlığın və qarşılıqlı dəstəyin daha da gücləndirilməsinin əhəmiyyəti bir daha təsdiqlənib.

Aparılan səmərəli müzakirələrin davamı olaraq tərəflər "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Sent-Vinsent və Qrenadinin Xarici İşlər, Xarici Ticarət, Xarici İnvestisiyalar və Diaspor Məsələləri Nazirliyi arasında siyasi məsləhətləşmələrə dair Protokol"u imzalayıblar.

Bu mühüm protokol institusional əlaqələri əhəmiyyətli dərəcədə gücləndirəcək, müntəzəm diplomatik təmasları təşviq edəcək və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığı inkişaf etdirəcək.

# Nazirlər Kabinetində geniş iclas keçirilib



Sentyabrın 24-də Nazirlər Kabinetində Baş nazir Əli Əsədovun rəhbərliyi və hökumət üzvlərinin iştirakı ilə "Azərbaycan Respublikasının 2027-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri" və "Azərbaycan Respublikasının 2027-ci il və növbəti üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri"nə həsr olunmuş geniş iclas keçirilib.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib.

Baş nazir Əli Əsədov giriş nitqi ilə çıxış edərək bildirib ki, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq, 2027-ci il dövlət və icmal büdcə layihələri və növbəti üç il üçün icmal büdcənin göstəriciləri, sosial-iqtisadi inkişaf proqnozları Nazirlər Kabinetinə təqdim edilib. Ə.Əsədov daha sonra deyib: "Bugünkü iclasımızın gündəliyində bu layihələri ətraflı müzakirə edəcəyik. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin cari ilin ötən dövrü ərzində həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasət, çoxşaxəli diplomatik fəaliyyət ölkəmizin gələcək inkişafı üçün yeni imkanlar açır.

Bu gün Azərbaycan regionda dayanıqlı sülhün və sabitliyin möhkəmləndirilməsinə yönəlmiş ardıcıl sülh gündəliyini irəli aparmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin bərpasını, Böyük qayıdışı, iqtisadiyyatın şaxələndirilməsini və ölkənin uzunmüddətli inkişafını əsas prioritetlər sırasında saxlayır.

2027-2030-cu illəri əhatə edən növbəti ortamüddətli dövr regionda cərəyan edən mürəkkəb geosiyasi-iqtisadi proseslər və qlobal inkişaf meyilləri baxımından ölkə qarşısında yeni strateji çağırışlar və hədəflər formalaşdırır.

Bu şərait qarşıdakı mərhələdə dövlət siyasətinin prioritetləri nəzərə alınmaqla mövcud imkanlardan səmərəli istifadə olunmasını və mümkün risklərə hazırlığın daha da gücləndirilməsini zəruri edir.

Qeyd edilən vəzifələrin həyata keçirilməsində səmərəli büdcə və fiskal siyasət mühüm rol oynayır. Qarşıdakı dövrdə maliyyə resurslarının əsas prioritetlər üzrə düzgün istiqamətləndirilməsi, sosial-iqtisadi sabitliyin qorunması və strateji inkişaf hədəflərinin reallaşdırılması əsas şərtlərdən biridir.

Bu yanaşma maliyyə planlaşdırılmasının ölkənin uzunmüddətli inkişaf prioritetləri və hazırda icra olunan strateji sənədlərlə sıx uzlaşdırılmasını zəruri edir.

Bu baxımdan "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və onun əsasında hazırlanmış "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", eləcə də "İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı" xüsusi əhəmiyyət daşıyır.

Sözügedən sənədlər uğurla icra olunur və cari il Strategiyanın həyata keçirilməsinin son ilidir.

2027-2030-cu illəri əhatə edəcək yeni Strategiyanın və Böyük Qayıdışa dair II Dövlət Proqramının layihələri artıq hazırlanıb və İqtisadi Şurada geniş müzakirə olunaraq Azərbaycan Respublikası Prezidentinə təqdim olunub. Son dövrdə cənab Prezident tərəfindən qəbul olunan yeni dövlət proqramları ilə bağlı olaraq Strategiya üzərində son tamamlanma işləri aparılır və yaxın aylarda təsdiq olunacağı gözlənilir".

Baş nazir deyib ki, Strategiyanın qəbul edildiyi 2022-ci ildən 2026-cı ilin gözlənilən artım templəri nəzərə alınmaqla qeyri-neft-qaz sektorunun orta illik artım tempinin 5,1% olacağı gözlənilir.

"Qlobal risklərə baxmayaraq, cari ilin ötən dövründə ölkəmizdə makroiqtisadi və maliyyə sabitliyi təmin olunmuş və əsas makroiqtisadi göstəricilərimiz dayanıqlıdır. Ümumilikdə neft-qaz sektoru üzrə hasilatın və artım tempinin azalması şəraitində iqtisadi artım təmin olunmuşdur. 2026-cı ilin yanvar-avqust aylarında ÜDM real ifadədə 1,2% artıb, o cümlədən qeyri-neft-qaz ÜDM-nin real artımı 2,1%, neft-qaz ÜDM-də isə 0,8% azalma olub. Əsas kapitala yönəldilmiş investisiyalar 10% artıb. Cari ilin ilk 8 ayında cənab Prezidentin müvafiq fərman və sərəncamları ilə hökumət tərəfindən kreditlər üzrə faiz subsidiyası mexanizminin ölkə üzrə tətbiqinə başlanılması və büdcədən əlavə vəsaitin ayrılması, nəqliyyat-logistika subsidiyasının verilməsi, bəzi ixrac xərclərinin kompensasiya edilməsi və digər istiqamətlərdə iqtisadi aktivliyə dəstək tədbirləri həyata keçirilib.

Hazırda ölkəmizin strateji valyuta ehtiyatları təxminən 91 mlrd. dollar təşkil edir. Bu göstərici xarici dövlət borcunu 20 dəfəyə yaxın üstələyir. Birbaşa xarici dövlət borcumuzun səviyyəsi sentyabrın 1-nə 4,5 mlrd. dollar olmaqla proqnoz ÜDM-in 5,6%-ni təşkil edir. 2026-cı ilin 8 ayında xarici ticarət balansının müsbət saldosu 10 mlrd. dollardan çox olub.

2026-cı ilin 8 ayında illik inflyasiya 5,7% olub. Beynəlxalq təşkilatların ərzaq və əmtəə qiymətləri ilə bağlı proqnozları, manatın məzənnəsinin sabitliyi və valyuta bazarının tarazlığı nəzərə alınmaqla növbəti ildə orta illik inflyasiyanın 5,3%-ə düşəcəyi və hədəf diapazonunda olacağı proqnozlaşdırılır", - deyə Əli Əsədov bildirib.

Baş nazir deyib ki, büdcənin əsas xərc istiqamətləri büdcə siyasəti qarşısında dayanan çağırışlar və Strategiyada sosial-iqtisadi hədəflər əsas götürülməklə ortamüddətli resurs zərfinə uyğun olaraq Milli Xərc Prioritetləri əsasında hazırlanıb:

"2027-2030-cu illərdə dövlət büdcəsi xərclərinin əsas prioritet istiqamətləri aşağıdakılardır:

1. Dayanıqlı iqtisadi artımın dəstəklənməsi;
2. İşğaldan azad olunmuş ərazilərdə yenidənqurma, bərpa və məskunlaşdırma tədbirlərinin davam etdirilməsi;
3. Müdafiə və milli təhlükəsizlik tədbirlərinin gücləndirilməsi;
4. Sosial müdafiə və sosial təminat istiqamətində tədbirlərin davamlı icrası;
5. Rəqəmsal inkişafın, süni intellektin və innovativ texnologiyaların tətbiqinin sürətləndirilməsi;
6. Təhsilin və innovativ inkişafın dəstəklənməsi;
7. Səhiyyə sisteminin və tibbi xidmətlərin keyfiyyətinin və səmərəliliyinin yüksəldilməsi;
8. Təmiz ətraf mühit və "yaşıl artım"ın təmin olunması.

Ortamüddətli dövrdə makrofiskal çərçivənin parametrləri fiskal dayanıqlığa, büdcə qaydasının hədəflərinə, xərclərin səmərəliliyinin yüksəldilməsinə, maliyyə-borc intizamına və Dövlət Neft Fondunun aktivlərinin dayanıqlı səviyyədə saxlanılmasına əsaslanaraq hazırlanıb.

2027-2030-cu illər üzrə makroiqtisadi sabitliyin və dayanıqlığın təmin olunması məqsədilə iqtisadi proqnozlarda və büdcə hesablamalarında (baza ssenaridə) neftin qiyməti 65 ABŞ dolları götürülüb.

Beləliklə, 2027-ci ildə dövlət büdcəsinin gəlirləri 39 milyard 234 milyon manat, xərcləri isə 42 milyard 400 milyon manat proqnoz edilir. Dövlət büdcəsi kəsirinin ÜDM-ə nisbəti 2,2%-dir (-3.166 mlrd. manat).

Makroiqtisadi proqnozlara əsasən 2027-ci ildə ümumi daxili məhsulun 2,7% (141.0 mlrd.manat), qeyri-neft sektoru üzrə 4,4%-lik real artım tempi proqnozlaşdırılır. Qeyri-neft sektorunun ÜDM-də payının cari ilin sonuna gözlənilən 72,5%-dən 2030-cu ilin sonuna 82%-ə yüksələcəyi hədəflənir.

Möhtərəm cənab Prezidentin apardığı uğurlu sosial-iqtisadi siyasətin mühüm prioritetlərindən biri də ölkə əhalisinin, şəhid ailələrinin, qazilərin və aztəminatlı ailələrin sosial müdafiəsinin və rifah səviyyəsinin gücləndirilməsidir.

Son illərdə bu istiqamətdə ardıcıl islahatlar aparılıb, əhalinin sosial müdafiəsinin və rifahının yaxşılaşması, sosial ödənişlərin, pensiyaların, əməkhaqlarının artırılması istiqamətində büdcədən əhəmiyyətli vəsait xərclənib. 2027-ci ilin dövlət büdcəsində bütün istiqamətlər üzrə bütövlükdə sosialyönlü xərclərin payı 44% proqnozlaşdırılır.

Hökumətin əsas və vacib prioritet xərc istiqaməti kimi dövlət büdcəsində ən böyük xərclərdən biri həmişə olduğu kimi, hərbi-müdafiə və milli təhlükəsizliyinin daha da gücləndirilməsi xərcləri olacaq.

Növbəti ilin dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik xərcləri 8,8 mlrd. manat təşkil edir (xərclərin 21%-i).

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa iştirakı və rəhbərliyi ilə işğaldan azad edilmiş bütün Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır, dayanıqlı məskunlaşma və iqtisadi reinteqrasiya üçün zəruri şərait yaradılır.

Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərə bu günə qədər 47 yaşayış məntəqəsinə, yəni 10 şəhər, 3 qəsəbə və 34 kəndə keçmiş məcburi köçkünlərin qayıdışı təmin edilib. Azad edilmiş ərazilərdə hazırda 93 mindən çox insan yaşayır, çalışır və təhsil alır.

Ümumilikdə 2020-ci ildən bəri 2026-cı il də daxil olmaqla işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün dövlət büdcəsindən cəmi 25 milyard manatdan çox vəsait ayrılıb. 2027-ci ildə bu məqsədə 3,4 milyard manat vəsait nəzərdə tutulur.

2027-ci ilin dövlət büdcəsində investisiyayönümlü strategiya və dövlət proqramlarının maliyyə təminatı üçün kifayət həcmdə vəsait planlaşdırılır.

2025-ci ildə və 2026-cı ilin ötən dövründə su, nəqliyyat, kənd təsərrüfatı, qida təhlükəsizliyi və turizm sahələrini əhatə edən dövlət proqramları qəbul edilmiş, həmin istiqamətlər üzrə əsas prioritetlər müəyyənləşdirilib.

Yeri gəlmişkən, sentyabrın 22-də cənab Prezidentin birbaşa sədrliyi ilə keçirilən müzakirələrdən sonra, onun xüsusi önəm verdiyi sahələrdən birini əhatə edən "Dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair 2027-2030-cu illər üçün Dövlət Proqramı" qəbul olunub.

Proqram çərçivəsində metallurgiya sənayesinin dayanıqlı inkişafının təmini, yüksək əlavə dəyər yaradan istehsalın və ixrac potensialının genişləndirilməsi və qeyri-neft sənayesinin rəqabət qabiliyyətinin artırılması, yeni iş yerlərinin yaradılması əsas istiqamətlər kimi müəyyən edilib.

Strategiyanın və bütün sahəvi dövlət proqramlarının uğurlu icrası cənab Prezidentin hökumət qarşısında qoyduğu sosial-iqtisadi vəzifələrin reallaşdırılmasını təmin etməklə yanaşı, ölkənin uzunmüddətli inkişaf prioritetlərinin həyata keçirilməsi üçün də möhkəm zəmin yaradır".

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN



# Regionda ilk dəfə Azərbaycanda Spartan Aeronavtika və Texnologiya Məktəbinin filialı fəaliyyətə başlayır











**Milli Aviasiya Akademiyasında (MAA) ABŞ-nin aviasiya təhsili sahəsində ixtisaslaşmış ali təhsil müəssisələrindən biri olan Spartan Aeronavtika və Texnologiya Məktəbinin fəaliyyətə başlamasına həsr olunan açılış mərasimi keçirilib.**

MAA-dan AZƏRTAC-a bildirilib ki, tədbirdə akademiyanın rektoru, akademik Arif Paşayev, ADA Universitetinin rektoru, professor Hafiz Paşayev, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, "Azərbaycan Hava Yolları" QSC-nin İdarə Heyətinin sədri Samir Rzayev, ABŞ-nin Spartan Aeronavtika və Texnologiya Kollecinin və "Spartan Education Group"un nümayəndələri iştirak ediblər.

Akademik Arif Paşayev çıxışında müasir aviasiyanın yalnız yüksəkixtisaslı kadr hazırlığı deyil, eyni zamanda elmi-tədqiqatların, yeni texnologiyaların və praktiki tətbiqlərin vəhdəti əsasında inkişaf etdirilməsinin vacibliyindən danışıb. O qeyd edib ki, aviasiya təhsilinin elmi potensialla dəstəklənməsi və beynəlxalq təcrübə ilə zənginləşdirilməsi Azərbaycan aviasiyasının inkişafı baxımından mühüm əhəmiyyət daşıyır.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Azərbaycanın nəqliyyat infrastrukturunun, o cümlədən hava nəqliyyatı sektorunun inkişafı istiqamətində həyata keçirilən layihələrdən danışıb. Elm və təhsil nazirinin müavini Firudin Qurbanov Spartan Aeronavtika və Texnologiya Məktəbinin filialının Azərbaycanda fəaliyyətə başlamasını ölkənin aviasiya təhsili və insan kapitalının inkişafı baxımından mühüm hadisə kimi qiymətləndirib.

"Azərbaycan Hava Yolları" QSC-nin İdarə Heyətinin sədri Samir Rzayev akademiyada uçuş hazırlığının təşkili, praktiki təlim imkanları və müasir aviasiya mütəxəssislərinin hazırlanması üçün yaradılan şəraitdən danışıb. O, MAA-da yeni fəaliyyətə başlayan Beynəlxalq Təlim Mərkəzinin bu prosesdə mühüm rolunu vurğulayıb. Spartan Azərbaycan Aviasiya Məktəbinin fəaliyyətə başlamasını da bu istiqamətdə növbəti mühüm addım kimi dəyərləndirib.

Azərbaycanda ilk "FAA A&P" lisenziya proqramının təşəbbüskarı və dəstəkçisi, "ALG" şirkətinin təsisçisi Fərhad Azima isə bildirib ki, Spartan Azərbaycan Aviasiya Məktəbinin fəaliyyətə başlaması Azərbaycan aviasiya təhsilində beynəlxalq əməkdaşlığın genişləndirilməsi və yeni nəsil aviasiya mütəxəssislərinin hazırlanmasında mühüm rol oynayacaq.

Tədbirdə çıxış edən "Spartan Education Group"un Baş İcraçı Direktoru Robert Polston, Strategiya və Biznesin İnkişafı üzrə icraçı vitse-prezidenti Daniel Bregman və Direktorlar Şurasının üzvü, kapitan David Bourne ABŞ-nin aviasiya təhsili sahəsində təcrübəsi, beynəlxalq əməkdaşlığın əhəmiyyəti və yeni layihənin perspektivləri barədə fikirlərini bölüşüblər.

ADA Universitetinin prorektoru Vəfa Kazdal da çıxış edərək təhsil tərəfdaşlığının əhəmiyyətini vurğulayıb.

Spartan Aeronavtika və Texnologiya Məktəbinin Azərbaycanda fəaliyyətə başlaması münasibətilə tərəflər arasında əməkdaşlığa dair müqavilə imzalanıb.

Qeyd edək ki, 63 tələbənin təhsil alacağı yeni məktəbdə tədrisin təşkilinə artıq başlanılıb. İyunun 1-dən tələbələr üçün ingilis dili kursları keçirilir. Tədris prosesinə isə noyabrın 16-dan start veriləcək. Sonda xatirə fotosu çəkdirilib.

# 2026-cı ildə Orta dəhliz formalaşma mərhələsindən miqyasın genişlənməsi dövrünə keçid edir

2026-cı ildə Orta dəhliz faktiki olaraq formalaşma mərhələsindən miqyasın genişlənməsi dövrünə keçid edir. Bu yeni mərhələdə Qazaxıstan, Azərbaycan və bütün region üçün əsas məsələ artıq marşruta ehtiyac deyil, nəqliyyat infrastrukturunun artan yükdaşımalarını qarşılamaq, habelə rəqabətli qiymətləri və çatdırılma müddətlərini təmin etmək qabiliyyətidir.

Bu fikri qazaxıstanlı nəqliyyat və təhlükəsizlik üzrə ekspert Dastan Ospanov AZƏRTAC-a müsahibəsində bildirib. Ekspert qeyd edib ki, yükdaşımalarının artımı bir neçə mənbədən qaynaqlanır: "Bunlara Çin-Avropa marşrutu üzrə konteyner daşımaları, Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında qarşılıqlı ticarətin artması, Qazaxıstan taxılının, metalların, neft-kimya məhsullarının və digər sənaye məhsullarının ixracı daxildir. ABŞ və Avropa İttifaqının Mərkəzi Asiyada iqtisadi mövcudluğu artırmaları fonunda təkcə mədənçiliyə deyil, həm də davamlı ixrac marşrutlarının yaradılmasına maraq güclənir. Gələcəkdə vacib minerallar və onların törəmələri də ayrıca bir sektora çevriləcək".

D. Ospanov vurğulayıb ki, dinamika yük axınında artımı artıq göstərir. "2026-cı ilin ilk beş ayında Orta dəhliz boyunca Çin-Avropa konteyner daşımaları 30 faiz artıb. Qazaxıstan bu marşrutun tutumunu hazırkı təxminən 6 milyon tondan 10 milyon tona qədər artırmağı planlaşdırır. Lakin yük sahibləri üçün yalnız həcm vacib deyil. Beynəlxalq biznes sabit tariflər, müntəzəm cədvəllər və proqnozlaşdırıla bilən çatdırılma müddətləri tələb edir. Buna görə də Orta dəhlizin inkişafının növbəti mərhələsi yalnız daşınan tonların və konteynerlərin sayı ilə deyil, həm də nəqliyyat məhsulunun keyfiyyəti ilə qiymətləndirilməlidir", - deyə ekspert sözlərini yekunlaşdırıb.

# IV Bakı Təhlükəsizlik Forumu keçirilib



Sentyabrın 22-də Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) təşkilatçılığı və beynəlxalq təşkilatların, eləcə də 100-dən artıq ölkənin xüsusi xidmət orqanlarının rəhbərlərinin və yüksəksəviyyəli nümayəndələrinin iştirakı ilə "Qlobal təhlükəsizlik arxitekturasında yeni çağırışlar və terrorçuluğa qarşı effektiv əməkdaşlıq mexanizmlərinin formalaşdırılması" mövzusunda IV Bakı Təhlükəsizlik Forumu (BTF) keçirilib.







Bu barədə AZƏRTAC-a DTX-dən məlumat verilib.

Bildirilib ki, tədbir açıq elan edildikdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin forum iştirakçılarına müraciəti oxunub, ardınca konfransın mövzusu ilə bağlı videomaterial nümayiş etdirilib.

İclasda çıxış edən DTX-nin rəisi general-polkovnik Əli Nağıyev Prezident İlham Əliyevin təşəbbüsü ilə əsası qoyulan və ildən-ilə əhatəsi genişlənən forumun iştirakçılarını növbəti dəfə Bakı şəhərində salamlamaqdan məmnunluğunu bildirib. Xidmət rəhbəri belə mötəbər tədbirlərin aktual çağırışların peşəkar müzakirəsi üçün geniş imkanlar yaratdığını, xüsusi xidmət və təhlükəsizlik orqanları arasında mühüm dialoq platformasına çevrildiyini vurğulayıb.

General-polkovnik Əli Nağıyev beynəlxalq təhlükəsizlik sisteminin dərin keçid dövrü yaşadığını, ənənəvi mexanizmlərin yeni təhdidlərə çevik cavab verə bilmədiyini və etibarlı tərəfdaşlığın zəruriliyini qeyd edib.

Təhlükəsizliyin artıq yalnız sərhədlərin qorunmasından ibarət olmadığını açıqlayan DTX rəhbəri davam edən münaqişələrin regional proseslərə, enerji bazarlarına və ərzaq təhlükəsizliyinə təsir etdiyini nəzərə çatdırıb.

BTF çərçivəsində həmçinin DTX və Birləşmiş Millətlər Təşkilatının Terrorçuluğa Qarşı Mübarizə Ofisinin birgə təşkilatçılığı ilə "Operativ tərəfdaşlıqlar vasitəsilə milli terrorçuluqla mübarizə imkanlarının gücləndirilməsi" mövzusunda yan tədbir də keçirilib. Müzakirələrdə müasir texnologiyaların doğurduğu terror təhdidlərinə qarşı effektiv milli, eləcə də beynəlxalq əlaqələndirmə mexanizmləri, habelə BTF-nin platforması olan Antiterror Məlumat Mübadiləsi Sistemi (CTIES) kimi qabaqcıl alətlərin inkişaf etdirilməsinin zəruriliyinə toxunulub.

# Gürcüstan parlament nümayəndə heyəti Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib





Ölkəmizdə səfərdə olan Gürcüstan parlamenti sədrinin müavini Nino Tsilosaninin başçılıq etdiyi nümayəndə heyəti sentyabrın 24-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, tər çiçəklər düzüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Şəhidlər xiyabanına gələn qonaqlar ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıblar, məzarları üzərinə tər çiçəklər düzüblər və "Əbədi məşəl" abidəsini ziyarət ediblər.

Bakının ən hündür nöqtəsindən şəhəri seyr edən nümayəndə heyətinə Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verilib. Ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin komitə sədri Anar İsgəndərov və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Milli Məclisdə Gürcüstan parlamentinin nümayəndə heyəti ilə görüş

Sentyabrın 24-də Milli Məclisin bir neçə komitə sədri ölkəmizdə səfərdə olan Gürcüstan parlamentinin sədr müavini Nino Tsilosaninin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ilk olaraq Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov çıxış edərək Azərbaycan və Gürcüstan xalqları arasında tarixən mövcud olan dostluq və qardaşlıq münasibətlərinin bu gün dövlət başçıları, eləcə də parlamentlər arasında əlaqələrdə də öz əksini tapdığını bildirib. Qeyd olunub ki, Azərbaycan və Gürcüstan bir-birini beynəlxalq və regional müstəvidə hər zaman dəstəkləyir, qarşılıqlı etimad və əməkdaşlığa əsaslanan münasibətləri ardıcıl şəkildə inkişaf etdirirlər.

Gürcüstan parlamentinin sədr müavini Nino Tsilosani Azərbaycana növbəti səfərindən məmnunluğunu ifadə edərək parlamentlərimiz arasında möhkəm dostluq və tərəfdaşlıq münasibətlərinin mövcud olduğunu vurğulayıb. Bildirilib ki, strateji tərəfdaş olan Azərbaycan və Gürcüstan arasında siyasi, iqtisadi və energetika sahələrində yüksəksəviyyəli əməkdaşlıq əlaqələri mövcuddur.

Daha sonra Milli Məclisin komitə sədri, Gürcüstan ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Arzu Nağıyev, parlamentin komitə sədrləri Hicran Hüseynova, Azər Əmiraslanov, Gürcüstan parlamentinin komitə sədrləri Məryəm Laşxi, Şota Berekaşvili çıxış ediblər.

Çıxışlarda Azərbaycan və Gürcüstan arasında təhsil, investisiya, energetika və turizm sahələrində əməkdaşlığın uğurla inkişaf etdiyi bildirilib. İki ölkənin regional və beynəlxalq əhəmiyyət daşıyan birgə layihələrinin, o cümlədən Orta dəhliz, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Qars layihələrinin iqtisadi və strateji əhəmiyyəti vurğulanıb.

Söhbət zamanı dövlət başçıları, parlament sədrləri və hökumət nümayəndələri arasında mütəmadi qarşılıqlı səfərlərin və görüşlərin Azərbaycan-Gürcüstan münasibətlərinin daha da möhkəmlənməsinə mühüm töhfə verdiyi qeyd olunub.

Görüşdə ölkələr arasında müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi, parlamentlərarası əlaqələrin daha da inkişaf etdirilməsi və yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin komitə sədri Şahin İsmayılov və Gürcüstan Parlamentinin üzvləri də iştirak ediblər.

*"Azərbaycan"*

# Daxili işlər naziri xarici dövlətlərin Polis Akademiyalarına ezam olunan polis kursantlarını qəbul edib



Sentyabrın 24-də daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov beynəlxalq əməkdaşlıq çərçivəsində xarici dövlətlərin Polis Akademiyalarında hüquq təhsili almaq üçün ezam olunan kursantları qəbul edib.

Nazir həyatlarında ən əlamətdar günlərdən biri - polis kursantı adına layiq görülmələri münasibətilə gəncləri təbrik edib, uğurlar arzulayıb.

Ölkə rəhbərliyinin gənclərə hər zaman böyük diqqət və qayğı göstərdiyini xatırladan nazir yüksək mənəviyyatlı, işgüzar və istedadlı gənclərin ölkəmizin ictimai həyatında təmsil olunmaları, onların dövlət idarəçiliyində xidmətdə irəli çəkilmələri üçün zəruri addımların atıldığını diqqətə çatdırıb. Kursantlara Vətənimizin, eləcə də Azərbaycan polisinin adını daim uca tutmağı, eyni zamanda bilik və təcrübələrini, peşəkar və fiziki hazırlıq səviyyələrini artırmaları, daim öz üzərlərində işləmələri, ən müasir informasiya texnologiyalarına yiyələnmələri tövsiyə edilib.

*"Azərbaycan"*

# MDB iştirakçısı olan dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının iclası keçirilib





Sentyabrın 23-də Belarus Respublikasının Brest şəhərində Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçısı olan dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 83-cü iclası keçirilib.

Tədbirdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Şahin Bağırovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib.

İclasda MDB iştirakçısı olan dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 82-ci iclasında qəbul edilmiş qərarların icra vəziyyəti, eləcə də gömrük nəzarəti proseslərində istifadə olunan informasiya texnologiyaları və proqram vasitələri, perspektiv rəqəmsal həllər, inspeksiya-baxış komplekslərindən istifadə üzrə qabaqcıl təcrübələrə dair müzakirələr aparılıb. Tədbir çərçivəsində həmçinin MDB-nin xarici iqtisadi fəaliyyətin mal nomenklaturasına uyğun təsnifatı, fiziki şəxslər tərəfindən şəxsi istifadə üçün nəzərdə tutulan ayrı-ayrı kateqoriyalı malların keçirilməsi qaydaları, transsərhəd elektron ticarət məsələləri, o cümlədən gömrük işinin müxtəlif sahələri üzrə fikir mübadiləsi aparılaraq bir sıra prioritet istiqamətlər müəyyən edilib.

*"Azərbaycan"*

# İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası

Sentyabrın 24-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. Komitənin sədri Azər Əmiraslanov iclası açaraq gündəliyə 4 məsələnin daxil edildiyini bildirib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, birinci məsələ olan "İcra haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumatı komitə sədri diqqətə çatdırıb. Bildirilib ki, layihədə "İcra haqqında" qanuna "Tələbin borclunun qiymətli kağızlarına yönəldilməsi" adlı yeni 46-1-ci maddənin əlavə edilməsi təklif olunub. Yeni maddə icra prosesi zamanı tələbin borclunun qiymətli kağızlarına yönəldilməsi mexanizmini müəyyən edir. Bununla əlaqədar layihədə "Qiymətli kağızlar bazarı haqqında" qanuna da müvafiq dəyişikliklərin edilməsi nəzərdə tutulur.

Komitə sədri ikinci məsələ haqqında məlumat verərək deyib ki, Mülki Məcəllədə, Gömrük Məcəlləsində, "Xidməti və mülki silah haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Ovçuluq haqqında", "İxrac nəzarəti haqqında" və "Telekommunikasiya haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi terminoloji unifikasiya ilə bağlıdır və dəyişikliklərdə "xüsusi icazə" ifadəsinin "icazə" ifadəsi ilə əvəz olunması təklif edilir.

Üçüncü məsələni təqdim edərkən Azər Əmiraslanov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti innovasiya ekosistemi üzrə dövlət dəstəyinin və stimullaşdırıcı mexanizmlərin təkmilləşdirilməsi məqsədilə Milli Məclisin qəbul etdiyi qanuna bir sıra əhəmiyyətli və mütərəqqi xarakter daşıyan dəyişikliklər təklif edib.

Yeni redaksiyada qanunun əsas konsepti dəyişmir, hədəfləri olduğu kimi saxlanılır. Əsas məqsəd yenə də ölkəmizdə innovativ iqtisadiyyatın inkişafının sürətləndirilməsi və bu sahəyə özəl investisiyaların cəlb edilməsinin stimullaşdırılmasıdır.

Azərbaycan Respublikası Prezidentinin təklifləri qanunun ilkin məqsədini qorumaqla onun tətbiq mexanizmlərinin təkmilləşdirilməsinə xidmət edir. Belə ki, yeni dəyişikliklərdən sonra innovativ fəaliyyətə dövlət dəstəyi daha hədəfli, daha ünvanlı və nəticəyönümlü xarakter alır.

Komitə sədri yenilənmiş qanun haqqında ətraflı məlumat vermək üçün rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Elmin Məmmədova söz verib.

Azərbaycan Respublikası Milli Məclisi tərəfindən 2026-cı il iyulun 14-də qəbul edilmiş, Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanmadan dəyişikliklərlə geri qaytarılan "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, "Sosial sığorta haqqında", "Gömrük tarifi haqqında", "Lisenziyalar və icazələr haqqında" və "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Qanun haqqında danışan Elmin Məmmədov deyib ki, sənəddə rəqəmsal iqtisadiyyatın, İKT-nin, innovasiya ekosisteminin və startapların inkişafını yeni mərhələyə daşıyacaq genişmiqyaslı təkliflər təqdim edilib. Bu islahat qeyri-dövlət sektoruna aid edilən və dövlət payı 51 faizdən az olan özəl texnologiya subyektlərini əhatə etməklə, ölkənin texnoloji inkişafını sürətləndirməyi məqsəd qoyur. Bildirilib ki, iri sahibkarlıq subyektlərinin bu böyük vergi güzəştlərindən yararlanmaları üçün onların ümumi gəlirlərində ixracın xüsusi çəkisinin olması və vəsaitlərin yerli banklara gətirilməsi şərti qoyulub. Bu yeni rejim 1 yanvar 2027-ci ildən sonra şəhadətnamə alan yeni rezidentlərə şamil ediləcək, mövcud rezidentlər isə fəaliyyətlərini cari hüquqi statusları çərçivəsində maneəsiz davam etdirəcəklər.

Vurğulanıb ki, bu təkliflər Azərbaycanın neft-qaz sektorundan asılılığının azaldılması, intellektual kapitalın ölkəyə cəlb olunması və yerli innovativ brendlərin dünya bazarına çıxışının genişləndirilməsi baxımından yeni imkanlar yaradır.

Sonra iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev sənəddəki güzəştlərin əsas məqamlarından danışıb, onların vahid sistem şəklində təqdim olunduğunu vurğulayıb. O, güzəştlərin uzun müddətə nəzərdə tutulmasının investisiya cəlbediciliyi və rəqabət imkanları baxımından əhəmiyyətini qeyd edib.

Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva sənəddə təklif olunan vergi təşviqlərinin subyektləri və onların əhatə dairəsi barədə məlumat verib.

İclasda yenilənmiş qanunun Azərbaycan Respublikası Prezidentinin təklif etdiyi dəyişikliklərlə qəbul edilməsi məqsədəuyğun hesab olunub, müvafiq qərar komitə üzvləri tərəfindən yekdilliklə dəstəklənib.

Gündəliyin sonuncu məsələsi olan "Banklar haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) isə deputatlara Mərkəzi Bankın sədr müavini Əli Əhmədov təqdim edib.

O bildirib ki, layihə Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na əsasən korporativ qiymətli kağızlar bazarının dərinləşdirilməsi çərçivəsində yeni investisiya aləti kimi sekyuritizasiyanın hüquqi əsaslarının yaradılması məqsədilə hazırlanıb.

Mərkəzi Bankın sədr müavini qanun layihəsinin slaydlarla müşayiət olunan təqdimatında sekyuritizasiyanın mahiyyəti, məqsədləri və predmeti, sekyuritizasiya prosesinin iştirakçıları və mərhələləri, habelə gözlənilən nəticələr barədə ətraflı məlumat verib.

İclasda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, komitə sədrinin müavini Azər Badamov, komitə üzvləri Əlibala Məhərrəmzadə, Rövşən Muradov, Vüqar Bayramov, Ziyad Səmədzadə və Əli Məsimli çıxış edərək təklif olunan dəyişikliklərlə bağlı fikirlərini bildiriblər, qeydlərini və suallarını səsləndiriblər.

Mərkəzi Bankın sədr müavini Əli Əhmədov, Mərkəzi Bankın baş direktorları Tural Feyzullayev və Tərlan Rəsulov deputatların dördüncü məsələ ilə bağlı qaldırdıqları məsələlərə aydınlıq gətiriblər, suallarını cavablandırıblar.

İclasda komitə üzvləri gündəlikdəki məsələləri Milli Məclisin plenar iclasında müzakirə olunmaq üçün tövsiyə ediblər.

*"Azərbaycan"*

**2020-ci ilin sentyabr ayı Azərbaycanın müasir dövlətçilik tarixində ən məsuliyyətli və taleyüklü mərhələlərdən biri kimi yadda qaldı. Otuz ilə yaxın davam edən Ermənistan-Azərbaycan münaqişəsinin dinc yolla həlli üçün Bakı nə qədər təmkin və konstruktiv mövqe nümayiş etdirsə də, İrəvanın ardıcıl hərbi-siyasi təxribatları bölgədə müharibəni qaçılmaz etdi.**



# "Əgər onlar bizə hücum etsələr, peşman olacaqlar"

## 2020-ci ildə "dəmir yumruq" işğalçı Ermənistanı qarşısında diz çökdürərək ədaləti bərpa etdi

Prezident İlham Əliyevin 2020-ci il sentyabrın 25-də - Vətən müharibəsindən iki gün öncə Avropa İttifaqının Cənubi Qafqaz üzrə ozamankı xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edərkən səsləndirdiyi "Kəşfiyyat mənbələrimizdə məlumat var ki, çox ciddi hərbi hazırlıqlar gedir, onların hərbi qüvvələri təmas xəttində, dövlət sərhədində cəmləşir. Biz vəziyyəti izləyirik və özümüzü müdafiə edəcəyik, Tovuzda etdiyimiz kimi, başqa bir çox hallarda etdiyimiz kimi. Əgər onlar bizə hücum etsələr, peşman olacaqlar" xəbərdarlığı, əslində, müharibənin astanasında duran regionun real mənzərəsini və Azərbaycanın dəmir iradəsini nümayiş etdirən tarixi bəyanat idi.

Bəli, Azərbaycan sülh istəyirdi, lakin düşmənin hərbi hazırlıqlarına qarşı qətiyyətli xəbərdarlıq edir və baş verəcəklərə cavabdeh olmadığını dünyaya bildirirdi.

### Diplomatik səbrin sonu

Münaqişə başlanan ilk gündən Azərbaycan beynəlxalq hüquq çərçivəsində sülhün və ədalətin bərpa olunmasının tərəfdarı kimi çıxış edib. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələri Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edirdi. Azərbaycan onilliklər boyunca ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlara sadiqlik göstərərək, məsələnin qan tökülmədən həllinə çalışdı. Prezident İlham Əliyev 2020-ci il sentyabrın 24-də BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarda videoformatda çıxışında bu sadiqliyi xüsusi vurğulamışdı: "Otuz ilə yaxın danışıqlar prosesində iştirakımız sülhə sadiqliyimizin bariz nümunəsidir... ... BMT Təhlükəsizlik Şurasının qətnamələrinin vaxt məhdudiyyəti yoxdur. Həmin qətnamələr icra edilənə qədər qüvvədədir. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin təhrif olunması isə qəbuledilməzdir.

Ermənistan-Azərbaycan münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaqdır. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü tam şəkildə bərpa edilməlidir. Dağlıq Qarabağ qədim və tarixi Azərbaycan torpağıdır. Qarabağ Azərbaycandır!"

Lakin beynəlxalq vasitəçilərin seyrçi mövqeyi və BMT qətnamələrinin kağız üzərində qalması Ermənistanda cəzasızlıq sindromu formalaşdırmışdı. İrəvan danışıqlar prosesini uzatmaqla Azərbaycan torpaqlarının işğalını əbədiləşdirmək yolunu seçmişdi.

2018-ci ildə Ermənistanda hakimiyyətə gələn yeni rəhbərlik də sülh prosesinə dalbadal ağır zərbələr vurdu. Siyasi məsuliyyətsizlik, populizm və hərbi ritorikanın artması danışıqları tamamilə dayandırdı. Nikol Paşinyanın Xankəndidə səsləndirdiyi "Qarabağ Ermənistandır və nöqtə" bəyanatı isə faktiki olaraq müharibənin fitilini alovlandırdı.

Eyni zamanda siyasi təxribatlarla yanaşı, Ermənistan Azərbaycana qarşı hərbi və mülki cinayətlər törədirdi. Livan və digər ölkələrdən gətirilən ermənilərin işğal altındakı ərazilərə yerləşdirilməsi 1949-cu il Cenevrə Konvensiyasının və beynəlxalq hüququn kobud pozuntusu idi.

Digər tərəfdən Qarabağ və Şərqi Zəngəzurdakı qızıl və digər faydalı qazıntı yataqları xarici şirkətlər cəlb edilməklə qanunsuz istismar olunurdu. Azərbaycanın mülki əhalisi hədəf alınmışdı. Təmas xəttində müntəzəm atəşkəs pozulur, dinc sakinlərin qətli davam edirdi. 2020-ci ilin avqustunda göndərilən erməni diversiya qrupunun başçısının yaxalanması və terror aktları planlaşdırdığını etiraf etməsi İrəvanın təcavüzkar siyasətini bir daha üzə çıxardı.

Üstəlik Ermənistanın müdafiə nazirinin ABŞ-də olarkən səsləndirdiyi "yeni ərazilər uğrunda yeni müharibə" fikirləri, İrəvanın Mingəçevir su anbarı, Səngəçal terminalı kimi strateji obyektləri vurmaq hədələri vəziyyəti son həddə çatdırdı.

2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələrinin münaqişə zonasından kənarda - Azərbaycanın Tovuz rayonu istiqamətində artilleriya zərbələri endirməklə başlatdığı hərbi təxribat nəticəsində hərbi qulluqçular arasında itkilər oldu və bir mülki şəxs öldürüldü. Həmin vaxt Azərbaycan Ordusu bu təxribatın qarşısını qətiyyətlə aldı. Düşmən ağır itkilər verərək geri çəkilməyə məcbur oldu. Məğlubiyyətini həzm edə bilməyən İrəvan iyul döyüşlərindən sonra ölkəmizə qarşı genişmiqyaslı hücuma hazırlaşdı.

### Müharibənin astanasında

Həmin dövrdə Prezident İlham Əliyev baş verənlərin gözlənilən ağır nəticələri barədə dünya ictimaiyyətini açıq şəkildə məlumatlandırdı. BMT-nin 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxışında dövlətimizin başçısı beynəlxalq birliyi Ermənistanı çəkindirməyə çağırdı: "Ermənistan rəhbərliyinin düşməncəsinə verilən azərbaycanofob bəyanatları və edilən təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə hazırlaşdığını nümayiş etdirir. Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanı növbəti hərbi təcavüzdən çəkindirməyə dəvət edirik.

Təxribatların baş verməsinə və gərginliyin artmasına görə məsuliyyət tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür".

Bu xəbərdarlıqdan cəmi bir gün sonra - 2020-ci il sentyabrın 25-də Toivo Klaarla görüşdə Prezident diplomatiyanın tükəndiyini və kəşfiyyat məlumatlarına əsasən düşmənin hücuma keçəcəyi təqdirdə cavabın amansız olacağını bəyan etdi.

Ancaq xarici havadarlarına güvənərək Bakının xəbərdarlıqlarına məhəl qoymayan Ermənistan 2020-ci il sentyabrın 27-də genişmiqyaslı növbəti hərbi təcavüzə əl atdı. Lakin bu dəfə Azərbaycan beynəlxalq hüquqa əsaslanaraq özünümüdafiə hüququnu tətbiq etdi və əks-hücum əməliyyatına başladı.

44 gün davam edən Vətən müharibəsi Azərbaycanın parlaq qələbəsi ilə başa çatdı. Bununla da "dəmir yumruq" işğalçını peşman etdi. Azərbaycan BMT Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalan qətnamələrini təkbaşına icra etdi, ərazi bütövlüyünü tam təmin etdi.

Prezident İlham Əliyevin 2025-ci ildə BMT Baş Assambleyasının 80-ci sessiyasındakı tarixi çıxışında vurğuladığı kimi: "Uzun illər ərzində mən bu kürsüdən Azərbaycana qarşı törədilmiş təcavüz, işğal və ədalətsizlik faciələri barədə danışmışam. Bu gün isə qələbəyə və sülhə aparan uzun yolumuzdan, Azərbaycan tarixində yeni dövrdən, Vətən müharibəsi ilə işğala necə son qoyulduğundan, sülhü siyasi vasitələrlə necə təmin etməyimizdən danışacağam".

Azərbaycan sübut etdi ki, sülhün ən sadiq tərəfdarı olduğu kimi, öz suverenliyini, torpaqlarını və mülki əhalisini qorumaq iqtidarında olan qüdrətli dövlətdir. İrəvanın 30 il boyu irəli sürdüyü işğal siyasəti özünə baha başa gəldi və Azərbaycanın liderliyi ilə Cənubi Qafqazda yeni sülh reallığı yarandı.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Qlobal etimadın təzahürü

## Donald Trampın BMT-də çıxışı zamanı Prezident İlham Əliyevdən sitat gətirməsi Azərbaycan liderinin yüksək beynəlxalq nüfuzunun göstəricisidir

Dövlətlərarası əlaqələrin xarakterini və inkişafını müəyyən edən ən mühüm amillərdən biri liderlər səviyyəsində formalaşan şəxsi etimad, qarşılıqlı hörmət və dialoqdur. Hazırda dünyada baş verən mürəkkəb proseslər, güc mərkəzləri arasındakı ziddiyyətlər fonunda liderlərin şəxsi nüfuzu dövlətlərin xarici siyasət imkanlarını genişləndirən əsas amillərdən sayılır. Bu baxımdan dünya güclərinin - Amerika Birləşmiş Ştatları, Çin Xalq Respublikası, Rusiya Federasiyası və Avropa İttifaqının rəhbərlərinin Azərbaycan Prezidenti İlham Əliyevin liderlik keyfiyyətləri, xarici kursu və qlobal miqyaslı təşəbbüsləri barədə mütəmadi səsləndirdikləri yüksək fikirlər dövlətimizin başçısının beynəlxalq müstəvidə qazandığı böyük nüfuzun aydın təzahürüdür.



Dünyanın əsas güc mərkəzlərindən biri olan Amerika Birləşmiş Ştatları Prezidenti Donald Trampın Azərbaycan liderinin fəaliyyətinə verdiyi yüksək qiymət xüsusi vurğulanmalıdır. Donald Trampın müxtəlif beynəlxalq platformalarda, o cümlədən sentyabrın 23-də BMT Baş Assambleyasının 81-ci sessiyasının yüksəksəviyyəli ümumi müzakirələrində çıxışı zamanı Cənubi Qafqazda sülhün və sabitliyin bərqərar olunmasında Azərbaycan Prezidentinin rolu haqqında dedikləri dövlətimizin başçısının beynəlxalq miqyasdakı nüfuzunu bir daha nümayiş etdirib. Tramp çıxışında Prezident İlham Əliyevin sülh prosesindəki rolunu yüksək qiymətləndirərək, dövlətimizin başçısının qısa müddətdə əldə olunan tarixi nəticələrə dair fikirlərinə istinad edib, iki ölkə arasında qarşılıqlı etimadın yüksək səviyyədə olduğunu vurğulayıb.

ABŞ Prezidenti dövlətimizin başçısı İlham Əliyevi güclü və qətiyyətli lider kimi xarakterizə edərək, onunla qurulan şəxsi dostluq və tərəfdaşlıq münasibətlərinə xüsusi önəm verdiyini dəfələrlə ifadə edib. Bundan əlavə, D.Trampın rəsmi sosial şəbəkə hesablarında Azərbaycan Prezidentinin və rəsmi Bakının xarici siyasət kursu, eləcə də Vaşinqton-Bakı tərəfdaşlığı haqqında məqalə və müsahibələri paylaşması Prezident İlham Əliyevin rəylərinin dünya nəhəngləri tərəfindən nə qədər ciddi qəbul edildiyini və yüksək dəyərləndirildiyini göstərir.

ABŞ liderinin Azərbaycan Prezidentinə yüksək etimadı digər Qərb güc mərkəzlərində də eynilə əksini tapır. Avropa İttifaqının rəhbərliyi də Prezident İlham Əliyevin siyasi iradəsini və Azərbaycanın qlobal rolunu açıq şəkildə etiraf edir. Aİ rəsmiləri Azərbaycanı Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı və strateji tərəfdaş adlandırır, "Cənub qaz dəhlizi"nin genişləndirilməsini və "yaşıl enerji" sahəsindəki təşəbbüsləri dövlətimizin başçısının uzaqgörən iqtisadi diplomatiyasının təntənəsi kimi qiymətləndirirlər.

Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayen dövlətimizin başçısı ilə görüşlərində və bəyanatlarında Azərbaycanın Avropa üçün təkcə enerji sahəsində deyil, ümumilikdə geostrateji müstəvidə sınaqdan çıxmış, etibarlı və inamlı tərəfdaş olduğunu xüsusi vurğulayıb. O, Prezident İlham Əliyevin qlobal enerji təhlükəsizliyinə verdiyi töhfələri və "yaşıl enerji" keçidində nümayiş etdirdiyi liderliyi yüksək dəyərləndirərək, iki tərəf arasında qurulan əməkdaşlığın möhkəm təməllərə söykəndiyini bəyan edib. Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta da Bakıda Azərbaycan Prezidenti ilə keçirdiyi mətbuat konfransında dövlətimizin başçısı İlham Əliyevin regional sabitlik və sülhün bərqərar olunmasındakı rolunu xüsusi qeyd edərək "Sizin liderliyiniz zəruridir və bizim tərəfdaşlığımız güclüdür", - deyə vurğulayıb. Avropa İttifaqının yüksəkçinli nümayəndələri Azərbaycan Prezidentinin təkcə enerji sahəsində deyil, regional sülh gündəliyinin irəli aparılmasında, mürəkkəb şəraitdə strateji mövqe sərgiləməsində nümayiş etdirdiyi iradəsini də xüsusi vurğulayırlar.

Qərb siyasi mərkəzləri ilə yanaşı, əks qütbdə yerləşən aparıcı güclər də Azərbaycan Prezidentinin liderlik keyfiyyətlərinə hər zaman dərin hörmətlə yanaşırlar. Şərqin və qlobal iqtisadiyyatın lokomotivi sayılan Çinin rəhbərliyi də dövlətimizin başçısının müdrik və praqmatik siyasətinə xüsusi dəyər verib. Çin Xalq Respublikasının Sədri Si Cinpin Prezident İlham Əliyevi beynəlxalq aləmdə böyük nüfuza malik lider və Çinin etibarlı dostu adlandırıb. Bu fikirlər iki ölkə arasındakı yüksəksəviyyəli siyasi dialoqun, qarşılıqlı etimadın və strateji tərəfdaşlıq əlaqələrinin nümunəsidir. Çin və Azərbaycan rəhbərlərinin görüşlərində mütəmadi olaraq vurğulanan bu cür ifadələr ölkələrimiz arasındakı bağları və gələcək əməkdaşlığın perspektivlərini əks etdirir. İki ölkə arasında qurulan strateji tərəfdaşlıq münasibətləri, "Bir kəmər, bir yol" layihəsi çərçivəsində Azərbaycanın logistik mərkəzə çevrilməsi məhz dövlətimizin başçısının uzaqgörən siyasətinin nəticəsidir. Çin Azərbaycan liderinin regional təhlükəsizlik, nəqliyyat dəhlizlərinin bərpası və qlobal iqtisadi inteqrasiya sahəsindəki təşəbbüslərini yüksək qiymətləndirir, dövlətimizin başçısı ilə şəxsi dialoqa və qarşılıqlı etimada xüsusi dəyər verir.

Dünya siyasətinin əsas mərkəzlərindən olan Rusiya Federasiyası ilə münasibətlərdə də liderlər arasındakı şəxsi etimad müstəsna rol oynayır. Rusiya Prezidenti Vladimir Putin dövlətimizin başçısı İlham Əliyev haqqında danışarkən onun yüksək dövlətçilik təcrübəsini, siyasi müdrikliyini, verdiyi sözlərə və imzaladığı sənədlərə hər zaman sadiq qalan etibarlı dövlət xadimi olmasını dəfələrlə vurğulayıb. Rusiya rəhbəri Azərbaycan Prezidentinin regional məsələlərin həllində nümayiş etdirdiyi konstruktiv mövqeni, Cənubi Qafqazda sülhün və dayanıqlı inkişafın təmin olunmasındakı müstəsna xidmətlərini yüksək qiymətləndirib. Bu yüksək qiymət iki ölkə arasında müttəfiqlik əlaqələri haqqında Bəyannamənin imzalanmasında və regional təhlükəsizlik arxitekturasının formalaşmasında öz real əksini tapır.

Bu gün Azərbaycanın xarici siyasətində diqqətçəkən mühüm məqamlardan biri də Şərqlə Qərb, Şimalla Cənub arasında körpü rolu oynayan çoxvektorlu diplomatiyanın uğurla həyata keçirilməsidir. Prezident İlham Əliyev qlobal çağırışlara unikal həll yolları təklif edən beynəlxalq miqyaslı siyasi xadim kimi tanınır. Qoşulmama Hərəkatına uğurlu sədrlik dövründə Bakının irəli sürdüyü qlobal təşəbbüslər, inkişaf etməkdə olan və kiçik ada dövlətlərinin hüquqlarının müdafiəsi istiqamətində atılan addımlar Azərbaycan Prezidentinin dünyadakı nüfuzunu daha da artırıb. Müxtəlif geosiyasi cəbhələrin qarşı-qarşıya gəldiyi dövrlərdə Prezident İlham Əliyev ziddiyyətli tərəflərin etimad göstərdiyi, dialoq və razılaşma üçün müraciət etdiyi nadir liderlərdəndir.

Birləşmiş Ərəb Əmirliklərinin nüfuzlu Şeyx Zayed Fondu tərəfindən Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi də təsdiq edir ki, hərbi və siyasi müstəvidə tarixi zəfərə imza atan dövlətimizin başçısı sülhün, humanizmin və qlobal həmrəyliyin də ən fəal təşəbbüskarı kimi qəbul olunur.

Vurğulanan məqamlar bir daha sübut edir ki, dünyanın fərqli qütbləri, bir-biri ilə rəqabətdə olan güc mərkəzləri də Prezident İlham Əliyevin liderliyini, siyasi uzaqgörənliyini və dövlətçilik təfəkkürünü birmənalı olaraq qəbul edir. Beynəlxalq aləmdə dövlətimizin başçısına göstərilən bu yüksək etimad, onun fikirlərinə, təşəbbüslərinə və tövsiyələrinə diqqətlə yanaşılması Azərbaycanın qlobal siyasətdəki çəkisini daha da artırır.

Məhz Prezident İlham Əliyevin həyata keçirdiyi müdrik və praqmatik xarici siyasət kursu sayəsində Azərbaycan bu gün beynəlxalq müstəvidə söz sahibi olan, qlobal qərarların qəbulunda mövqeyi nəzərə alınan, öz şərtlərini diktə edən "orta güc" statusuna malik nüfuzlu dövlətə çevrilib.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın qlobal təhlükəsizlik arxitekturasına töhfəsi

Dünya yeni və mürəkkəb bir mərhələyə daxil olub. Müharibələr, regional qarşıdurmalar, terrorçuluq, transmilli cinayətkarlıq, kibertəhdidlər, etimad böhranı və geosiyasi rəqabət beynəlxalq münasibətlər sisteminin qarşısında daha mürəkkəb suallar qoyur. Belə bir vaxtda təhlükəsizlik yalnız silahların gücü ilə qorunan anlayış deyil, həm də sülh yaratmaq, dövlətlər arasında etimad formalaşdırmaq, münaqişələrin həllinə siyasi iradə göstərmək və müxtəlif ölkələri ortaq təhlükələr ətrafında əməkdaşlığa gətirmək kimi gündəmə çıxır. Bu baxımdan sentyabrın 22-də Bakıda keçirilən IV Bakı Təhlükəsizlik Forumu xüsusi əhəmiyyət daşıyır. Azərbaycan Dövlət Təhlükəsizliyi Xidmətinin təşkilatçılığı ilə keçirilən forumda 100-dən çox ölkənin xüsusi xidmət və təhlükəsizlik orqanlarının rəhbərləri, yüksəksəviyyəli nümayəndələri, beynəlxalq təşkilatların təmsilçiləri iştirak ediblər. Tədbirdə təxminən 600 yüksəksəviyyəli nümayəndənin bir araya gəlməsi Bakının təhlükəsizlik məsələləri üzrə beynəlxalq dialoq məkanı kimi formalaşan rolunun miqyasını göstərir.

Bakı Təhlükəsizlik Forumunun mövzusu da təsadüfi seçilməyib: "Qlobal təhlükəsizlik arxitekturasında yeni çağırışlar və terrorçuluğa qarşı effektiv əməkdaşlıq mexanizmlərinin formalaşdırılması". Azərbaycanın irəli sürdüyü yanaşmanın əsas mahiyyəti ondan ibarətdir ki, müasir təhlükələr sərhəd tanımırsa, onlara qarşı mübarizə də ayrı-ayrı dövlətlərin səyləri ilə məhdudlaşa bilməz. Prezident İlham Əliyevin forum iştirakçılarına müraciətində də məhz bu yanaşma ifadə olunub. Dövlətimizin başçısı bildirib ki, forum beynəlxalq təhlükəsizlik sahəsində fikir mübadiləsi və əməkdaşlığın inkişafı üçün mühüm imkanlar yaratmaqla onun iştirakçı coğrafiyasının genişlənməsi Bakı platformasının beynəlxalq səviyyədə artan nüfuzunu göstərir. Prezident həmçinin Azərbaycanın müxtəlif beynəlxalq və regional platformalarda təhlükəsizlik məsələləri üzrə dialoqun təşviqinə və qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinə böyük əhəmiyyət verdiyini vurğulayıb.

Azərbaycanın qlobal təhlükəsizliyə verdiyi töhfəni yalnız Bakıda keçirilən təhlükəsizlik forumu ilə ölçmək doğru olmaz. Bu gün ölkəmizin beynəlxalq təhlükəsizlik gündəliyində görünən rolunun arxasında daha geniş bir siyasi xətt - münaqişələrin həlli, suverenlik və ərazi bütövlüyü prinsiplərinin müdafiəsi, regional əməkdaşlığın genişləndirilməsi və təhlükəsizlik problemlərinə qarşı institusional əməkdaşlığın təşviqi dayanır. Azərbaycanın təhlükəsizlik sahəsində ən böyük tarixi təcrübəsi Qarabağ münaqişəsi ilə bağlıdır. Təxminən üç onillik ərzində davam edən münaqişə yalnız Azərbaycan-Ermənistan münasibətlərinin problemi deyildi, eyni zamanda Cənubi Qafqazın təhlükəsizliyinə, nəqliyyat-kommunikasiya əlaqələrinə, iqtisadi inkişafına, bütövlükdə Avropanın enerji təhlükəsizliyinə təsir edən amillərdən birinə çevrilmişdi.

Azərbaycanın 2020-ci il 44 günlük Vətən müharibəsində qazandığı Zəfərdən sonra qarşısında duran əsas məsələ yalnız hərbi nəticələrin möhkəmləndirilməsi deyildi. Vacib strateji məsələ regionu yeni müharibələrdən uzaqlaşdıracaq siyasi-hüquqi çərçivənin yaradılması idi. Bu baxımdan Azərbaycan tərəfindən 2022-ci ilin martında irəli sürülmüş beş əsas prinsip xüsusi əhəmiyyət daşıyırdı. Həmin prinsiplər qarşılıqlı suverenliyin və ərazi bütövlüyünün tanınmasını, bir-birinə qarşı ərazi iddialarından imtinanı, gücdən və güc tətbiqi hədəsindən çəkinməyi, dövlət sərhədinin delimitasiya və demarkasiyasını, diplomatik münasibətlərin qurulmasını, nəqliyyat və digər kommunikasiyaların açılmasını və əməkdaşlığın inkişafını nəzərdə tuturdu. Bu prinsiplər sonrakı sülh prosesinin əsas elementləri ilə üst-üstə düşdü. Prezident İlham Əliyev həmin dövrdə ölkəmiz tərəfindən irəli sürülmüş beş prinsipin sülh danışıqları üçün əsas yaratdığını bəyan etdi. Başqa sözlə, Azərbaycan hərbi qarşıdurmadan sonra siyasi gündəliyi ortaya qoydu - müharibədən sülhə keçid. Sülhün həqiqi dəyəri yalnız siyasi bəyanatlarda deyil, onun gündəlik həyatda yaratdığı dəyişikliklərdə görünür.

2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Trampın iştirakı ilə mühüm birgə sənəd imzalandı. Sənəddə Azərbaycan və Ermənistan arasında sülh sazişinin razılaşdırılmış mətninin paraflanması, kommunikasiya əlaqələrinin inkişafı, dövlətlərin ərazi bütövlüyü və suverenliyinin qarşılıqlı tanınması, gələcəkdə revanş cəhdlərinin rədd edilməsi kimi müddəalar əksini tapdı. Bu prosesin sonrakı mərhələsi də diqqətəlayiqdir. 2026-cı il avqustun 31-də Bişkekdə Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyan arasında keçirilən görüşdə sülh prosesinin praktik nəticələri sırasında Azərbaycanın Ermənistana neft məhsullarının ixracı, üçüncü ölkələrdən Ermənistana Azərbaycanın ərazisi ilə taxıl və digər yüklərin tranziti və iki ölkə arasında ticarət əlaqələrinin qurulması xüsusi qeyd edildi.

Deməli, sülh yalnız siyasi termin kimi qalmır, eyni zamanda tədricən ticarətə, tranzitə, iqtisadi əlaqələrə və qarşılıqlı maraqlara çevrilir. Bu isə təhlükəsizliyin ən mühüm formalarından biridir.

Azərbaycanın qlobal təhlükəsizlik arxitekturasına töhfəsini daha geniş prizmadan qiymətləndirmək lazımdır. Ölkəmizin coğrafi mövqeyi onu Şərqlə Qərb, Şimalla Cənub arasında mühüm nəqliyyat və enerji bağlantılarının üzərində yerləşdirir. Bu səbəbdən Azərbaycanın təhlükəsizliyi yalnız milli sərhədlərin qorunması məsələsi deyil, ölkəmizin təhlükəsiz və sabit olması, eyni zamanda enerji, nəqliyyat və ticarət marşrutlarının davamlılığı baxımından da əhəmiyyət daşıyır. Bu məqamda Prezident İlham Əliyevin Bakı Təhlükəsizlik Forumu ilə bağlı səsləndirdiyi bir fikir xüsusi məna kəsb edir: "Bakı artıq yalnız enerji və nəqliyyat qovşağı deyil, həm də qlobal təhlükəsizlik müzakirələrinin ünvanıdır." Bu cümlə Azərbaycanın son illərdə beynəlxalq sistemdə formalaşdırdığı yeni funksiyanı qısa şəkildə ifadə edir. Əgər əvvəllər Bakı əsasən enerji və nəqliyyat layihələrinin mühüm mərkəzi kimi tanınırdısa, indi buna təhlükəsizlik diplomatiyası da əlavə olunur.

Bakı Təhlükəsizlik Forumunun inkişafı da bu baxımdan ayrıca diqqət çəkir. Forumun məqsədi müxtəlif ölkələrin təhlükəsizlik və xüsusi xidmət orqanlarını vahid dialoq platformasında bir araya gətirməkdir. 2026-cı ilin iyununda forumun BMT-də təqdimatı zamanı onun operativ platforması - Antiterror Məlumat Mübadiləsi Sistemi (CTIES) haqqında məlumat verilib. Həmin təqdimatda forumun 100-dən artıq ölkədən 150-dən çox təhlükəsizlik və kəşfiyyat qurumunu əhatə etdiyi, daimi Katibliyin yaradıldığı və onun hüquqi institusional inkişafı, gələcəkdə beynəlxalq təşkilata transformasiyası istiqamətində iş aparıldığı bildirilib. Bu, sadəcə, konfrans keçirməkdən daha böyük bir prosesdir. Çünki terrorçuluqla mübarizədə ən mühüm məsələlərdən biri vaxtında məlumat əldə etmək, həmin məlumatı müvafiq tərəfdaşlarla bölüşmək və təhlükəni reallaşmadan əvvəl müəyyənləşdirməkdir. Məhz buna görə Prezident İlham Əliyevin forumdakı müraciətində vurğulanan açıq və etibarlı dialoq, qarşılıqlı etimad, məlumat və təcrübə mübadiləsi prinsipləri təhlükəsizlik siyasətinin praktiki tərəfi ilə birləşir. Beləliklə, Azərbaycanın təhlükəsizlik sahəsində töhfəsi yalnız təhlükəsizliyin təmin olunması deyil, həm də təhlükəsizliyin kollektiv şəkildə təmin olunması üçün mexanizm yaratmaq istiqamətindədir.

Bu gün dünyanın müxtəlif bölgələrində terrorçuluq və təhlükəsizlik təhdidləri sərhədlərdən kənara çıxır. Bir ölkədə yaranan qeyri-sabitlik digər ölkələrə, hətta digər qitələrə təsir göstərə bilir. Azərbaycanın irəli sürdüyü Bakı Təhlükəsizlik Forumu modeli məhz bu reallıqdan çıxış edir: təhlükəsizlik bölünməzdir və bir dövlətin təhlükəsizliyi digər dövlətlərin təhlükəsizliyindən tam təcrid oluna bilməz. Azərbaycanın özünün də uzun illər terrorçuluq, separatizm və işğal kimi təhlükələrlə üzləşməsi ona təhlükəsizlik məsələlərinə yalnız nəzəri deyil, praktiki təcrübə əsasında yanaşmaq imkanı verib. İndi isə həmin təcrübə beynəlxalq əməkdaşlıq müstəvisinə çıxarılır.

Azərbaycanın son illər ortaya qoyduğu siyasətin maraqlı cəhəti ondan ibarətdir ki, sülh və təhlükəsizlik məsələləri bir-birindən ayrı təqdim edilmir. Qarabağ münaqişəsinin həlli regional təhlükəsizlik üçün yeni imkan yaradıb. Ölkəmizin Ermənistanla sülh gündəliyinin əsasında qarşılıqlı suverenlik, ərazi bütövlüyü, sərhədlərin müəyyənləşdirilməsi və kommunikasiyaların açılması dayanır. Kommunikasiyaların açılması isə öz növbəsində iqtisadi əməkdaşlığa, tranzit imkanlarının genişlənməsinə və qarşılıqlı asılılığın yaranmasına xidmət edir. Bakı Təhlükəsizlik Forumu isə bütün bunların üzərinə daha bir ölçü əlavə edir - təhlükəsizlik sahəsində beynəlxalq əməkdaşlıq və informasiya mübadiləsi.

Beləliklə, Azərbaycanın yanaşmasında sülh, təhlükəsizlik, nəqliyyat, enerji və iqtisadi əməkdaşlıq bir-birindən təcrid olunmuş istiqamətlər deyil, onlar bir-birini tamamlayan və regional sabitliyi möhkəmləndirən elementlər kimi çıxış edir. IV Bakı Təhlükəsizlik Forumunun fonunda Azərbaycanın dünyaya verdiyi əsas mesajı belə ifadə etmək mümkündür: təhlükəsiz dünya yalnız güc balansı ilə deyil, dialoq, etimad, suverenliyə hörmət və dövlətlər arasında praktik əməkdaşlıqla qurula bilər. Azərbaycan öz təcrübəsində bunun müxtəlif mərhələlərini yaşayıb - əvvəlcə təhlükəsizliyinə təhdidlərlə üzləşib, sonra ərazi bütövlüyünün bərpası mərhələsindən keçib, müharibədən sonrakı sülh gündəliyini irəli sürüb, nəhayət, öz paytaxtını qlobal təhlükəsizlik dialoqunun platformalarından birinə çevirib.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# İqtisadiyyat və sosial həyat



# Mineral sərvətlər və "yaşıl gələcək"

## Prezident İlham ƏLİYEV: "Maksimum ekoloji ekspertiza aparılmalıdır və bütün ekoloji normalar gözlənilməlidir"

Dünyada texnoloji tərəqqinin sürətləndiyi, qlobal iqtisadi rəqabətin yeni mərhələyə qədəm qoyduğu bir vaxtda Azərbaycanın zəngin mineral xammal ehtiyatlarının iqtisadi dövriyyəyə daha səmərəli cəlb edilməsi qarşıda yeni imkanlar açır. "Azərbaycan Respublikasında 2027-2030-cu illərdə dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı"nın  mahiyyətində də məhz bu strateji yanaşma dayanır: hasilatdan başlayaraq zənginləşdirmə və dərin emala, oradan isə son sənaye məhsulunun istehsalına qədər uzanan, mümkün qədər tam və dayanıqlı istehsal zəncirinin Azərbaycanda qurulması.

Proqramın ölkə üçün yaradacağı strateji imkanlardan danışarkən qeyd etmək lazımdır ki, burada əsas hədəf, sadəcə, istehsalın artırılması deyil. Əsas məqsəd Azərbaycanın qlobal sənaye zəncirindəki mövqeyinin dəyişdirilməsidir. Dərin emal sənayesinin formalaşdırılması ölkəmizin dünya bazarında tanınan mövqedən çıxmasına zəmin yaradar. Bu baxımdan xammalın müasir texnologiyalar əsasında ölkə daxilində emal edilərək beynəlxalq standartlara uyğun məhsula çevrilməsi xüsusi əhəmiyyət daşıyır.

Belə istiqamətin qlobal sənaye trendləri ilə uzlaşdırılması Azərbaycanın mineral xammal potensialından daha yüksək əlavə dəyər əldə etməsinə, eyni zamanda ekoloji və rəqəmsal istehsal modelinin formalaşdırılmasına imkan yarada bilər. Məsələyə bu prizmadan yanaşan İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "Azexport.az" portalının rəhbəri Ayxan Qədəşov "yaşıl metallurgiya"nı qarşıdakı dövr üçün mühüm istiqamətlərdən biri kimi qiymətləndirir: "Ən vacib məqamlardan biri "yaşıl metallurgiya" trendidir. Azad edilmiş ərazilərdə və Naxçıvanda formalaşdırılan "yaşıl enerji"nin metallurgiyaya tətbiqi ilə karbon ayaq izi aşağı olan "yaşıl metallar" istehsal olunacaq ki, bu da Avropanın Sərhəddə Karbon Tənzimlənməsi Mexanizminə (CBAM) tam uyğun olaraq ixrac rəqabətliliyini yüksək səviyyəyə qaldıracaq. Yekun etibarilə həm istehsal həcmlərinin dəfələrlə artması, həm də beynəlxalq standartlaşma Azərbaycan məhsullarının London Metal Birjası kimi qlobal əmtəə birjalarında və "B2B" elektron ticarət platformalarında birbaşa, rəqəmsal yollarla realizasiyasına fundamental zəmin yaradacaq. Qlobal sənayenin aşağı karbonlu istehsala keçidi metallurgiya qarşısında yeni tələblər formalaşdırdığı kimi, mineral xammal potensialına malik ölkələr üçün də yeni imkanlar yaradır. Azərbaycan üçün əsas məsələ isə bu qlobal dəyişimi vaxtında dəyərləndirərək, öz xammal resurslarını daha müasir, ekoloji səmərəli və yüksək əlavə dəyər yaradan istehsal modelinə inteqrasiya etməkdir".

Bunların praktiki müstəvidə necə reallaşdırılacağı məsələsi isə sənaye infrastrukturunun formalaşdırılmasını və istehsal zəncirinin bütün həlqələrinin vahid sistemdə birləşdirilməsini zəruri edir. Xüsusilə Qərb Sənaye Parkının yaradılması bu baxımdan mühüm addımlardan biri kimi  ön plana çıxır. Prezident İlham Əliyev proqrama həsr olunmuş müşavirədə çıxışı zamanı parkın yaradılmasının əsas məqsədinin dağ-mədən sənayesinin inkişafı olduğunu vurğulayaraq, burada hasilatdan son məhsula qədər uzanan tam istehsal zəncirinin qurulmasının vacibliyinə diqqət çəkib: "Parkda  təbii ki, filiz hasilatı və bir neçə zavodun yaradılması nəzərdə tutulur. Zənginləşdirmə, pelet və briketlənmiş dəmir zavodları yaradılmalıdır. Burada, təbii ki, bu filizin daşınması önəmli yer tutur. Ona görə bu daşınmada, yəni tariflərdə güzəştlər edilməlidir ki, iqtisadi cəhətdən səmərəli olsun. Maksimum ekoloji ekspertiza aparılmalıdır və bütün ekoloji normalar gözlənilməlidir. Çünki əsas sərvətimiz hətta yerin altında olan sərvətlər deyil, bizim təbiətimizdir".

Göründüyü kimi, Prezident çıxışında sənaye inkişafının digər mühüm tərəfinə - ekoloji təhlükəsizliyə də diqqət çəkib. Dağ-mədən layihələrinin həyata keçirilməsi zamanı yüksək ekoloji standartların qorunmasının vacibliyini vurğulayan dövlət başçısı Azərbaycanın əsas sərvətinin yalnız yeraltı təbii ehtiyatlardan ibarət olmadığını, ölkənin təbiətinin qorunmasının da prioritet təşkil etdiyini bildirib. Çünki dağ-mədən sənayesinin inkişafı torpaq ehtiyatlarına, su resurslarına, landşafta və biomüxtəlifliyə birbaşa təsir göstərdiyindən hər bir layihənin qiymətləndirilməsində ekoloji amillər də iqtisadi səmərəlilik qədər diqqətdə saxlanılmalıdır. İstehsal zamanı su və enerji sərfiyyatının, tullantıların idarə olunmasının, atmosferə atılan emissiyaların, pozulmuş torpaqların bərpasının və ətraf ekosistemlərə təsirin konkret, ölçülə bilən göstəricilər əsasında davamlı monitorinqi xüsusi əhəmiyyət daşıyır.

Yeraltı sərvətlərin iqtisadi dövriyyəyə cəlb edilməsi ətraf mühitin qorunması ilə ziddiyyət təşkil etməməlidir. Əksinə, müasir texnologiyaların tətbiqi, yüksək ekoloji standartların təmin edilməsi və davamlı monitorinq sistemlərinin qurulması yeni sənaye imkanlarının yaradılmasını ekoloji dayanıqlılıq prinsipləri ilə uzlaşdırmağa imkan verə bilər. Bu yanaşma hasilatın həcmi ilə yanaşı, onun hansı ekoloji və sosial məsuliyyət çərçivəsində həyata keçirildiyini də sənaye siyasətinin mühüm göstəricisinə çevirir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# SOCAR-ın Qərbi Afrika layihəsi

**Bu günlərdə SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) ilə İtaliyanın "Eni S.p.A." şirkəti arasında Kot-d'İvuar (Fil Dişi Sahili) Respublikasında yerləşən "Baleine" neft-qaz yatağının işlənməsi layihəsində 10 faiz iştirak payının əldə olunması prosesi yekunlaşıb. Əməliyyat bütün tələb olunan təsdiqlərin alınması və zəruri şərtlərin icrası ilə başa çatdırılıb.**

"Baleine" Qərbi Afrikada son illərdə aşkar edilmiş ən iri neft-qaz yataqlarından biri hesab olunur. Dənizdə yerləşən nəhəng yataq 2021-ci ildə kəşf edilib və 2023-cü ildə burada hasilata başlanıb. Bu yataq dəniz səviyyəsindən təqribən 1200 metr dərinlikdə "məskunlaşıb".

"Baleine" Afrikada ilk xalis sıfır emissiyalı dəniz neft-qaz layihəsidir.

SOCAR "Baleine" yatağının işlənməsi layihəsində iştirak payının alınması ilə bağlı sazişi "Eni S.p.A." şirkəti ilə bu ilin yanvarında imzalayıb. Bu saziş SOCAR-ın Afrika qitəsinin zəngin neft-qaz resurslarına çıxışını təmin etməklə yanaşı, şirkətin qlobal genişlənmə strategiyasına tam uyğundur. Sənədə Dünya İqtisadi Forumunun illik toplantısı çərçivəsində SOCAR-ın prezidenti Rövşən Nəcəf və "Eni S.p.A." şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi imza atıblar. SOCAR-ın layihədə 10 faiz iştirak payının əldə olunması prosesinin  yekunlaşmasından sonra iştirak payları belədir:"Eni" (həm də operatordur) 37,25 faiz, "Vitol"  30 faiz, "Petroci" 22,75 faiz və SOCAR  10 faiz.

SOCAR-ın "Baleine"dəki tərəfdaşları ilə yaxından tanış olaq. "Eni S.p.A." qlobal miqyasda fəaliyyət göstərən nəhəng İtaliya transmilli enerji şirkətidir. Dünyanın ən böyük neft-qaz korporasiyalarından biri olmaqla, bərpaolunan enerji və dekarbonizasiya sahəsində də həllər təqdim edir. Fəaliyyət sahəsi neft-qaz hasilatı və emalı, elektrik enerjisi istehsalı, innovativ enerjiyə keçiddən ibarətdir. "Eni" 1953-cü ildə təsis edilib, 71 500-ə yaxın əməkdaşı olan beynəlxalq bir qurumdur.

"Eni" onilliklərdir Azərbaycanın etibarlı tərəfdaşı kimi sınaqdan keçib. Hazırda bu şirkət Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin 10 səhmdarından biridir və layihədə 5 faiz iştirak payına malikdir. 2024-cü ildə SOCAR-la "Eni" arasında Anlaşma Memorandumu imzalanıb. Prezident İlham Əliyev dəfələrlə bu şirkətin rəhbərlərini qəbul edib, həmin görüşlərdə əməkdaşlığın perspektivləri müzakirə olunub.

"Vitol" isə 1966-cı ildə Rotterdamda yaradılmış İsveçrə-Hollandiya mənşəli bir şirkətdir. Dünyanın ən iri enerji və neft treyderlərindən biri sayılır. Qlobal miqyasda enerji paylanması və əmtəə həlləri təklif edən şirkət SOCAR kimi sanballı qurumlarla əməkdaşlıq edir.




Neft, qaz və "yaşıl enerji" sahəsində ölkəmizin çoxsaylı tərəfdaşları sırasına qoşulmuş "PETROCI Holding"i də yaxından tanıyaq. Bu holdinq 1975-ci ildə yaradılıb. Kot-d'İvuarın milli neft şirkətidir. Şirkət karbohidrogenlərin kəşfiyyatı, hasilatı, habelə neft və neft məhsullarının ticarəti ilə məşğuldur.

Qeyd edək ki, hazırda "Baleine" yatağından işlənmənin 1-ci və 2-ci mərhələləri çərçivəsində gündəlik 62 min bareldən artıq neft və 2,1 milyon kubmetrdən çox qaz çıxarılır. 4 milyard dollar investisiya ilə təsdiqlənən və inşası davam edən 3-cü mərhələnin işə düşməsi ilə hasilatın gündəlik 150 min barel neftə və 5,7 milyon kubmetr qaza çatdırılması gözlənilir. Yataqdakı neftin potensial həcminin təxminən 2,5 milyard barel, təbii qaz ehtiyatlarının isə 3,3 trilyon kubfut (93,4 milyard kubmetr) olduğu təxmin edilir.

Bu günlərdə yekunlaşan satınalma SOCAR-ın Afrikanın "upstream"( neft-qaz sektorunda istehsal zəncirinin ən başlanğıc mərhələsi) sektoruna daxil olmasını təmin etməklə yanaşı, şirkətin qlobal "upstream" fəaliyyətini genişləndirməyə yönəlmiş uzunmüddətli strategiyasına töhfə verəcək.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Süni intellekt əmək bazarını necə dəyişir?

Süni intellekt artıq yalnız texnologiya sektoruna aid anlayış deyil. Bir neçə il əvvəl daha çox proqramlaşdırma, robototexnika və elmi tədqiqatlarla əlaqələndirilən bu texnologiya bu gün bankçılıqdan təhsilə, səhiyyədən mediaya, ticarətdən istehsala qədər müxtəlif sahələrdə iş prosesinin bir hissəsinə çevrilir. Şirkətlər süni intellektdən məlumatların təhlili, mətn və hesabatların hazırlanması, müştəri müraciətlərinin cavablandırılması, proqnozlaşdırma və gündəlik əməliyyatların avtomatlaşdırılması üçün istifadə edirlər. Bununla da əmək bazarında bir sual getdikcə daha çox aktuallaşır. Süni intellekt insanları işsiz qoyacaq, yoxsa, sadəcə, onların işləmə üsulunu dəyişəcək?

Mövcud araşdırmalar ikinci ehtimalın daha real olduğunu göstərir. Beynəlxalq Əmək Təşkilatının (ILO) hesablamalarına görə, dünyada hər dörd işçidən biri generativ süni intellektin müəyyən dərəcədə təsir göstərə biləcəyi peşədə çalışır. Lakin təşkilat vurğulayır ki, əksər hallarda söhbət peşələrin tamamilə yox olmasından deyil, onların daxilində görülən vəzifələrin dəyişməsindən gedir. Başqa sözlə, süni intellekt bir çox iş yerində insanı bütövlükdə əvəz etməkdən daha çox onun gördüyü müəyyən işləri öz üzərinə götürəcək. Dünya İqtisadi Forumunun "Future of Jobs Report 2025" hesabatına görə, texnoloji inkişaf, iqtisadi və demoqrafik dəyişikliklər, "yaşıl keçid" və digər amillərin təsiri ilə 2030-cu ilədək dünyada 170 milyon yeni iş yerinin yaranacağı, eyni zamanda 92 milyon mövcud iş yerinin sıradan çıxacağı proqnozlaşdırılır. Nəticədə qlobal miqyasda 78 milyon əlavə iş yerinin yaranması ehtimal edilir. Bu rəqəmlər göstərir ki, texnologiyanın inkişafı yalnız peşələri aradan qaldırmır, paralel olaraq yeni məşğulluq imkanları da formalaşdırır.

Dəyişiklik ilk növbədə təkrarlanan və standart qaydalar əsasında görülən işlərdə hiss olunacaq. Məlumatların sistemə daxil edilməsi, sənədlərin ilkin hazırlanması, sadə mühasibat əməliyyatları, standart müştəri sorğularının cavablandırılması, mətnlərin texniki işlənməsi və bəzi inzibati tapşırıqlar artıq süni intellekt vasitəsilə daha sürətli yerinə yetirilə bilir. ILO-nun araşdırmalarında da inzibati və kargüzarlıq peşələrinin generativ süni intellektin təsirinə ən çox məruz qalan sahələr sırasında olduğu göstərilir. Ancaq dəyişiklik yalnız sadə əməliyyatlarla məhdudlaşmır. Süni intellektin mətn, foto, səs və video hazırlamaq imkanlarının genişlənməsi media, reklam, dizayn və rəqəmsal kommunikasiya sahələrinə də təsir göstərir. Hüquq, maliyyə, təhsil və səhiyyə sahələrini nümunə götürək. Süni intellekt böyük həcmdə sənədi qısa müddətdə təhlil edə, məlumatları qruplaşdıra, ilkin hesabat hazırlaya və mümkün




variantları təqdim edə bilər. Ancaq hüquqi məsuliyyət, insanlarla ünsiyyət, mürəkkəb vəziyyətlərdə qərarvermə, empatiya və etik seçim kimi məsələlərdə insan amili mühüm olaraq qalır.

Süni intellekt bəzi ənənəvi vəzifələrə tələbi azaldarkən tamamilə yeni ixtisasların inkişafını da sürətləndirir. Süni intellekt və maşın öyrənməsi üzrə mütəxəssislər, məlumat mühəndisləri, kibertəhlükəsizlik ekspertləri, süni intellekt sistemlərinin tətbiqi və idarə olunması ilə məşğul olan mütəxəssislərə ehtiyac artır. Bununla yanaşı, gələcəyin əmək bazarında hər kəsin proqramçı olması tələb edilməyəcək. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) məlumatına görə, işçilərin yalnız çox kiçik hissəsinə - 1 faizdən də azına süni intellekt sistemlərinin proqramlaşdırılması və modellərin hazırlanması kimi yüksəksəviyyəli ixtisaslaşmış bacarıqlar lazım olacaq. Daha geniş işçi qrupu üçün isə rəqəmsal alətlərdən istifadə etmək, məlumatları düzgün təhlil və şərh etmək, süni intellektin verdiyi nəticəni qiymətləndirmək bacarığı vacibləşəcək.

Bu dəyişiklik təhsil sisteminin qarşısında da yeni vəzifələr qoyur. Bir dəfə ixtisas əldə edib həmin biliklə onilliklər ərzində işləmək modeli tədricən zəifləyir. Əmək bazarında mövqeyini qorumaq istəyən mütəxəssis yeni texnologiyaları öyrənməli, biliklərini davamlı yeniləməli və dəyişən iş mühitinə uyğunlaşmalıdır. Buna görə gələcəkdə diplomla yanaşı, ömür boyu öyrənmək bacarığı da əmək bazarında əsas üstünlüklərdən birinə çevriləcək.

Süni intellekt dövründə insanın üstünlüyü yalnız texnologiyadan istifadə etmək bacarığı ilə ölçülməyəcək. Tənqidi düşüncə, yaradıcılıq, məsuliyyət, ünsiyyət, komanda işi, empatiya və qeyri-standart vəziyyətlərdə düzgün qərarvermə kimi xüsusiyyətlər əmək bazarında daha böyük əhəmiyyət qazanacaq. Texnologiya məlumatı saniyələr ərzində emal edə bilsə də, həmin məlumatın hansı məqsədlə və necə istifadə olunacağını müəyyənləşdirmək yenə də insanın üzərinə düşəcək. Buna görə də əsas məsələ insanların dəyişən əmək bazarının tələblərinə nə dərəcədə hazır olmasıdır. Gələcəyin əmək bazarında insan və süni intellekt qarşı-qarşıya duran iki qüvvə kimi deyil, eyni iş prosesinin bir-birini tamamlayan iştirakçıları kimi çıxış edəcək. Bu yeni reallıqda üstünlük süni intellektlə rəqabət aparanlara deyil, onun imkanlarından düzgün istifadə edərək öz bilik və bacarıqlarını inkişaf etdirənlərə məxsus olacaq.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# REGİONLAR

## Lənkəran payız-qış mövsümünə hazırlaşır



Payızın gəlməsinə baxmayaraq, havalar hələlik isti keçir. Lakin təbiətin işini bilmək olmaz və onun fəsadlarından heç kəs sığortalanmayıb. Ən yaxşı həll yolu isə küləkli, yağışlı, qarlı-şaxtalı günlərə, aylara vaxtında hazırlaşmaqdır. Bunu yaxşı bilən Lənkəran rayonunun əlaqədar təşkilatları payız-qış mövsümünə hələ yay aylarında hazırlaşmağa başlayıblar.

Belə ki, elektrik enerjisi, təbii qaz, su və digər kommunal xidmətlərin fasiləsizliyinin təmin olunması üçün müvafiq texniki və təşkilati tədbirlər həyata keçirilib, mövcud avadanlıqların vəziyyəti yoxlanılıb və aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması istiqamətində bir sıra işlər görülüb. Eyni zamanda payız-qış mövsümündə baş verə biləcək fövqəladə halların və digər neqativ hadisələrin qarşısının alınması, operativ müdaxilənin təmin edilməsi və aidiyyəti qurumlar arasında qarşılıqlı fəaliyyətin gücləndirilməsi məqsədilə müvafiq tədbirlər müəyyən edilib. Ümumilikdə rayonun idarə, müəssisə və təşkilatları tərəfindən payız-qış aylarının normal və təhlükəsiz keçirilməsi üçün zəruri hazırlıq işləri davam etdirilir.

Rayon ərazisində istehlakçıların fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təminatından ötrü Lənkəran Elektrik Şəbəkəsinin (EŞ) işçi personalı tərəfindən 2026-cı ilin 8 ayı ərzində bir sıra vacib, əsaslı, cari təmir və yenidənqurma işləri həyata keçirilib. "Lənkəran-1" və "Lənkəran-2", Karyer, Liman, Sinovli, Səpnəkəran, Hirkan, Xanbulan yarımstansiyalarında cari təmir və sınaq işləri aparılıb, transformatorlara və yağ açarlarına yağ əlavə olunub, yanmış cərəyan transformatorları yenisi ilə əvəz edilib, izolyasiyanın sınağı və rele mühafizəsi yoxlanılıb. Yarımstansiyaların əraziləri təmizlənib və avadanlıqlar rənglənib. "Lənkəran-2" yarımstansiyasında transformatorlar daha güclüləri ilə əvəz olunub. Hirkan, Xanbulan, Lənkəran, Liman, Sinovli hava xətlərinə baxışlar keçirilib.

Lənkəran rayonunda gərginliyi zəif olan yaşayış massivlərindən Şağlaser, Ürgə, Digah, Şıxakəran, Kərgəlan kəndlərinin hərəsində bir ədəd olmaqla ümumilikdə 5 ədəd yeni güc mərkəzləri quraşdırılaraq istismara verilib. Hazırda Şiləvar kəndində yeni güc mərkəzinin quraşdırılması üçün işlər davam etdirilir.

Lənkəran EŞ-nin xidməti ərazisində gərginliyi zəif olan digər yaşayış massivlərindən Digah, Şağlaser, Ürgə, Mollakənd, Separadi, Boladı, Sinovli və Mamusta kəndlərində, Lənkəran şəhərinin bir sıra küçə və prospektlərində, o cümlədən Liman şəhərində güclü transformatorlardan əlavə 0,4 kilovoltluq fiderlər çəkilib. Artıq yüklənmiş transformator daha güclü transformatorla əvəz olunub. Təmir işləri zamanı transformatorlara 2,2 ton transformator yağı əlavə edilib.

Lənkəran rayonunun qəsəbə və kəndlərində yeni abonentlər üçün 302 ədəd sayğac quraşdırılıb, 2 min 600 ədəd qüsurlu sayğac yenisi ilə əvəzlənib.

"Azərişıq" ASC tərəfindən şəbəkənin yenidən qurulması nəticəsində Boladı kəndində açıq tipli naqillərdən ibarət olan şəbəkələr yeni müasir tipli izolyasiyalı kabel xətləri ilə yenidən qurulur və hazırda işlər davam etdirilir. Burada 10 min 500 metr SİP kabel xətti çəkilib. Gərmətük qəsəbəsində isə yenidənqurma işləri tamamlanmaq üzrədir.

Qeyd etmək lazımdır ki, bu sahədə bir sıra nöqsanlar da mövcuddur. Belə ki, küləkli, yağışlı və qarlı hava şəraitində elektrik xətlərinin qırılması, köhnə dayaqların sıradan çıxması halları baş verir, yeni yaşayış massivlərində isə transformatorların həddindən artıq yüklənməsi nəticəsində abonentlərin elektrik enerjisi ilə təminatında problemlər yaranır. Nəticədə elektrik enerjisi abonentlərə normadan aşağı gərginliklə verilir ki, bu da məişət və digər elektrik avadanlıqlarının tez-tez sıradan çıxmasına səbəb olur.

Bu məsələlərə Lənkəran Elektrik Şəbəkəsi tərəfindən diqqət artırılmalı, mövcud nöqsanların, çatışmazlıqların aradan qaldırılması istiqamətində lazımi tədbirlər həyata keçirilməlidir.

Lənkəran Regional Qaz İstismar İdarəsinin Lənkəran Xidmət Sahəsi rayonun 73 yaşayış məntəqəsində 49 min 423 əhali abonentinə, 649 qeyri-əhali və 3 fərdi istixanaya xidmət göstərir.

2026-2027-ci illərin payız-qış mövsümünə hazırlıq çərçivəsində rayonun Liman şəhəri, Gərmətük qəsəbəsi və Digah kəndində yeni ŞQTM (Şəbəkə Qaz Təzyiq Mərkəzi) tipli təzə tənzimləyicilərin quraşdırılması, dayaqlardan düşmüş qaz xətlərinin dayaqlar üzərinə qaldırılması, qaz xətlərinin boyanması, Lənkəran rayonunun müxtəlif kəndlərində təzə siyirtmələrin quraşdırılması işləri yekunlaşdırılıb. Vətəndaş müraciətləri əsasında 104 çağrı mərkəzinə daxil olan sifarişlərə əsasən, 2 min 200 ədəd D20 millimetrlik qaz kranı və 79 ədəd fərdi qaz tənzimləyicisi yenisi ilə əvəz olunub. "Təmiz Qaz" MMC-nin xətt baxıcıları tərəfindən Lənkəran ərazisində müxtəlif diametrli qaz xətlərində qaz sızmaları aşkar edilib, 427 qaz sızması aradan qaldırılıb.

Rayonun Moloja və Daştatük kəndlərinin qazlaşdırılmasının icrası ilə bağlı ümumilikdə müxtəlif diametrli borulardan olmaqla 38 min poqonmetr uzunluqda qaz xətlərinin Təmir Tikinti İdarəsi tərəfidən çəkilməsi işləri həyata keçirilib. Bu kəndlərdə işlər tamamlandıqdan sonra Aşağı Apu kəndinin qazlaşdırılması planlaşdırılıb.

2026-cı ilin yanvar-avqust ayları ərzində Lənkəran Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi tərəfindən mənbədən 3 milyon 323 min 834 kubmetr su qəbul olunub. Bunun 209 min 925 kubmetri texnoloji proseslərə və daxili tələbata sərf olunub, 569 min 66 kubmetri su dəyəri ödənilməyən bulaqlara verilib, 1 milyon 737 min 871 kubmetri isə istehlakçılara satılıb. 796 min 972 kubmetr, yəni 23 faiz su itkisi qeydə alınıb.

İdarənin xidməti ərazisinin bir sıra yerlərində 2026-cı ilin yanvar-avqust ayları ərzində cari təmir işləri görülüb. Ümumilikdə təmir işlərində müxtəlif diametrli 96,5 poqonmetr borudan istifadə olunub. Cari ilin aprel ayında 2 ədəd 300 kubmetrlik xam su anbarı plan qrafikə uyğun olaraq yuyularaq dezinfeksiya olunub.

Lənkəran Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi tərəfindən sözügedən dövr ərzində kanalizasiya şəbəkəsində müxtəlif diametrli 10 min 426 poqonmetr kanalizasiya borusu və 717 baxış quyusu təmizlənib. 96,5 poqonmetr müxtəlif diametrli kanalizaisya xətti təmir olunub, 7 kanalizasiya baxış quyusunda əsaslı təmir işləri aparılıb.

Həmçinin "Regional Su Meliorasiya Xidməti" publik hüquqi şəxsi tərəfindən ezam olunmuş xüsusi texnika vasitəsilə Lənkəran şəhərinin bir sıra küçələrində 958 metr muxtəlif diametrli kanalizasiya xətti və 24 kanalizasiya baxış quyusu yuyularaq lildən və bərk tullantılardan təmizlənib.

Rayon ərazisindəki suvarma kanallarında 60,5 kilometrlik hissədə 159 min kubmetr həcmində lildən təmizləmə və 102 min kubmetr həcmində torpaq hamarlanma işləri görülüb. İzafi suların kənarlaşdırılmasından ötrü rayon ərazisindəki kollektorlarda 17 kilometrlik hissədə 51 min kubmetr həcmində lildən təmizləmə və 39,3 min kubmetr həcmdə torpaq hamarlama işləri görülüb.

Payız-qış mövsümünə hazırlıqla əlaqədar nasos stansiyalarında, su aşırıcı bəndlərdə və hidrotexniki qurğularda sazlanma işləri aparılır. İdarənin maşın və mexanizmləri saz vəziyyətə gətirilir və bu istiqamətdə işlər davam etdirilir.

Həmçinin Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2026-cı il tarixli sərəncamına əsasən, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sifarişi əsasında Lənkərançay, Girdəniçay, Viravulçay və Ulumçay ətrafındakı yaşayış məntəqələrinin və əkin sahələrinin sel sularından mühafizəsi tədbirləri çərçivəsində layihə-smeta sənədləri hazırlanıb. Həmin sənədlərin ekspertiza olunması məsələsinə Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyində baxılır.

Köhnə Ələt-Astara magistral yolunun Lənkəran rayonu ərazisində istismar müddəti başa çatmış Viravulçay və Girdəniçay üzərində körpülər inşaat norma və qaydalarının tələblərinə uyğun yenidən qurulmaqla cari ildə istifadəyə verilib.

Lənkəran şəhər Mənzil İstismar və Kommunal Müəssisələr İdarəsi (MİKMİ) tərəfindən şəhərin əksər küçələrində suötürücü kanallar və kollektorlar palçıq və otlardan təmizlənərək suya axar verilib, tullantıların zərərsizləşdirilməsi üçün şərait yaradılıb. Poliqona gedən yola 28 maşın qum-çınqıl qatının tökülərək hamarlanması təmin edilib. Məişət tullantılarının qrafik üzrə aparılması, əhali və istehlakçılar tərəfindən qrafikdən kənar bərk məişət tullantılarının küçələrə atılmasının qarşısının alınması məqsədilə mütəmadi olaraq profilaktik söhbətlər aparılıb. Şəhərin təmizliyi sahəsində müəyyən işlər görülsə də, bəzi nöqsanlar vardır. Belə ki, küçələr və səkilər süpürüldükdən sonra tullantıların bir qismi vaxtında daşınmadığından suötürücü kanallara yığılır, bu da suyun normal axmasına maneələr yaradır.

Lənkəran şəhər MİKMİ tərəfindən bir sıra kommunal yaşayış binalarında və mənzillərdə su-kanalizasiya xətləri, dam örtükləri, tüstü bacaları təmir olunub, süni zibilliklər ləğv edilib, suötürücü kanallar qismən təmizlənib, bəzi yaşayış binalarının zirzəmisinə yığılmış izafi sular nasos vasitəsilə kənarlaşdırılıb, bir sıra binaların zibilxanalarında uzun müddət qalmış tullantı qalıqları yığılaraq daşınıb.

Lənkəran şəhər İşıqlandırma Müəssisəsi tərəfindən mövsümə hazırlıqla əlaqədar küçə işıqlandırıcılarının yararsız elektrik xətləri dəyişdirilib, sıradan çıxmış elektrik lampaları və yeraltı kabellər təzələnib, digər elektrik avadanlıqları yenisi ilə əvəzlənib və ayrı-ayrı ünvanlarda yeni ayrıcılar quraşdırılıb. Həmçinin "Bakı Abadlıq Xidməti" MMC tərəfindən cari ildə Lənkəran şəhərində genişmiqyaslı abadlıq, bərpa və təmir işləri aparılır.

48 nömrəli Yol İstismar" MMC-nin balansında olan avtomobil yollarında yaranmış çalalara asfalt-beton örtüyü çəkilib, suötürücü borular, küveytlər palçıqdan təmizlənib, körpü məhəccərləri rənglənib və sıradan çıxmış yol nişanları yenilənib. Ucqar dağ kəndlərinə gedən avtomobil yollarına şəhər icra hakimiyyətinin yaxından köməkliyi ilə qum-çınqıl materialı töküləræk ağır texnikalar vasitəsilə hamarlama və genişləndirmə işləri aparılıb, yol kənarlarında mövcud küveytlər bərpa edilməklə nəqliyyatın hərəkəti normal qaydaya salınıb.

Lənkəran İstilik Sistemləri İstismar Sahəsi tərəfindən Lənkəran şəhər Qarışıq tipli uşaq evinə, Xarici dillər təmayüllü gimnaziyaya və Şəhidlər xiyabanı küçəsi 46/15 nömrəli ünvanda yerləşən yaşayış binasına xidmət göstərən qazanxanaların istilik xətləri, qaz boruları və dıgər avadanlıqlar təmir edilərək işlək vəziyyətə gətirilib, qazanxanaların ətrafında abadlıq işləri aparılıb. Buna baxmayaraq, sahə rəhbərliyi idarənin balansında olan qazanxanaların payız-qış aylarında daim işlək vəziyyətdə olmasına nəzarəti gücləndirməlidir.

Rayonun əlaqədar müəssisə və təşkilatlarında qış mövsümü üçün tələb olunan bütün maşın və mexanizmlər, o cümlədən mövcud avtoqreyder, ekskavator və digər ağır texnikalar tam təmir edilərək işlək vəziyyətə gətirilib. Kənd yerlərində mövcud ağır texnikalardan istifadə etməklə yolların qardan təmizlənməsi bir qayda olaraq həmin ərazi dairəsindəki icra nümayəndələri tərəfindən təşkil edilir. Qış mövsümündə qarlı günlərdə maşın və mexanizmlərin yollarda sürüşməməsi, eləcə də təhlükəsiz hərəkət etməsi üçün lazımi qədər qum ehtiyatı yaradılıb. Rayonun müəssisə, idarə və təşkilatlarında qışa hazırlıq işləri davam etdirilir. Payız-qış mövsümündə təbii fəlakət baş verəcəyi təqdirdə şəhər icra hakimiyyətində fəaliyyət göstərən qərargah öz işini fövqəladə hallara uyğun qurmağa hazırdır.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Tovuzda Vətən müharibəsi şəhidləri anıldı

**27** Sentyabr - Anım Günü ərəfəsində Vətənimizin ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi Tovuz rayonunda dərin ehtiramla yad edilir. Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədovun iştirakı ilə rayon sakinləri və şəhid ailələri dağ kəndlərindəki Vətən müharibəsi şəhidlərinin məzarlarını ziyarət etmiş və onların əziz xatirələrinə ehtiramlarını bildirmişlər.



Rayonun Qaralar, Qaradaş, Çeşməli, Çatax, Əsrik Cırdaxan, Koxanəbi, Bayramlı və Azaflı kəndlərindən olan tədbir iştirakçıları şəhidlərimizin məzarlarını ziyarət edərək məzarları üstünə gül-çiçək dəstələri düzmüşlər.

Ziyarət zamanı şəhidlərin keçdiyi şərəfli döyüş yolu, Vətən uğrunda göstərdikləri misilsiz qəhrəmanlıq və fədakarlıq bir daha ehtiramla xatırlanıb.

Bildirilib ki, şəhidlərimizin əziz xatirəsi xalqımızın yaddaşında daim yaşayacaq, onların qəhrəmanlığı gələcək nəsillər üçün əsl Vətən sevgisi və vətənpərvərlik nümunəsi olacaqdır.

Görüş zamanı icra başçısı şəhid ailələrinin üzvləri ilə söhbət etmiş, onların qayğıları ilə maraqlanmışdır. Bildirilmişdir ki, şəhid ailələri daim dövlətin diqqət və qayğısı ilə əhatə olunmuşlar. Onların sosial-məişət problemlərinin həlli və müraciətlərinin araşdırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Qeyd olunmuşdur ki, şəhidlərin əziz xatirəsini yaşatmaq, onların ailələrinə diqqət və qayğı göstərmək, Vətən qarşısındakı misilsiz xidmətlərini daim ehtiramla yad etmək hər birimizin mənəvi borcudur.

Şəhid ailələrinin üzvləri dövlətin göstərdiyi diqqət və qayğıdan məmnun olduqlarını bildirmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Şirvanda şəhid ailələri və müharibə əlilləri ziyarət edilib

27 Sentyabr - Anım Günü ərəfəsində ölkəmizin ərazi bütövlüyü, suverenliyi və tarixi torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərdə canlarından keçmiş Şirvan şəhərindən olan şəhidlərimizin ailələri və müharibə əlilləri ziyarət olunub.



Ziyarətdə Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, Şirvan Şəhər Polis Şöbəsinin rəisi Seymur Əfəndiyev, Şirvan Bələdiyyəsinin sədri İlham Səfərov, Şirvan Şəhər Mərkəzi Xəstəxanasının direktoru Canəli Nəbiyev, şəhər icra hakimiyyəti başçısının müavini Aynur Fərzəliyeva və Aparatın əməkdaşları iştirak ediblər.

Görüşlər zamanı şəhid və qazilərimizin keçdiyi şərəfli döyüş yolu xatırlanıb, onların qəhrəmanlıqlarının tariximizdə əbədi yaşayacağı vurğulanıb. Şəhər icra hakimiyyətinin başçısı İlqar Abbasov şəhid ailələri və müharibə əlillərinin qayğıları ilə maraqlanıb, qaldırdıqları məsələlərin nəzarətdə saxlanacağını və həlli məqsədilə müvafiq tədbirlərin görüləcəyini bildirib.

Səmimi söhbət şəraitində keçən görüşlərdə şəhid ailələrinin üzvləri və müharibə əlilləri göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

## Hacıqabul xəbərləri

### "Qalmaz" və "Qaradağ" yeraltı qaz anbarlarının yubileyləri qeyd edilib

Hacıqabul rayonunda yerləşən "Qalmaz" Yeraltı Qaz Anbarı İdarəsində müəssisənin 50 illik və "Qaradağ" yeraltı qaz anbarının 40 illik yubileylərinə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov, SOCAR-ın "Midstream Gas Operations" MMC-nin baş icraçı direktoru Polad Rüstəmov, SOCAR-ın "Azneft" İB-nin baş direktoru İlqar Əlizadə, SOCAR-ın "Neftqaztikinti" Trestinin müdiri Qağaməli Seyfullayev, SOCAR-ın Qaz İxrac İdarəsinin rəisi Əkbər Hacıyev, eləcə də digər aidiyyəti şəxslər və müəssisənin əməkdaşları iştirak ediblər.

Tədbirdə çıxış edən Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov "Qalmaz" yeraltı qaz anbarının 50 illik yubileyi münasibətilə tədbir iştirakçılarını təbrik edib, kollektivə möhkəm cansağlığı, ailə səadəti və fəaliyyətlərində yeni nailiyyətlər arzulayıb. Rayon rəhbəri bildirib ki, "Qalmaz" yeraltı qaz anbarı Azərbaycanın qaz sənayesinin inkişafında, enerji təhlükəsizliyinin möhkəmləndirilməsində və milli enerji infrastrukturunun formalaşmasında mühüm əhəmiyyət daşıyır. O, müəssisənin uzun illər ərzində təbii qaz ehtiyatlarının saxlanılması, mövsümi tələbatın tənzimlənməsi və ölkənin etibarlı qaz təchizatının təmin olunması istiqamətində mühüm vəzifələr yerinə yetirdiyini qeyd edib. Müəssisənin fəaliyyətində əməyi olan mütəxəssislərin, mühəndislərin, texniki işçilərin və fəhlələrin zəhməti yüksək qiymətləndirilərək onlara minnətdarlıq ifadə olunub.

Tədbirdə əminlik ifadə edilib ki, hər iki müəssisədə formalaşmış zəngin təcrübə və peşəkar ənənələr qarşıdakı illərdə də Azərbaycanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə xidmət edəcək.

Çıxış edən digər iştirakçılar da "Qalmaz" yeraltı qaz anbarının 50 illik, "Qaradağ" yeraltı qaz anbarının isə 40 illik yubileyi münasibətilə kollektivə təbriklərini çatdırıblar.

### "Aqrar sahədə dövlətin dəstək mexanizmləri" mövzusunda panel müzakirəsi keçirilib

Hacıqabul Rayon İcra Hakimiyyətində "Aqrar sahədə dövlətin dəstək mexanizmləri" mövzusunda panel müzakirəsi keçirilib.

Tədbirin rəsmi açılışında Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov, Kənd Təsərrüfatı nazirinin müavini Elçin Zeynalov və Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov iştirak ediblər.

Müzakirələr zamanı aqrar sahədə dövlət dəstəyi mexanizmləri, torpaqdan səmərəli istifadə, aqrar sığorta, bitkiçiliyin təşkili və monitorinqi, su ehtiyatlarından səmərəli istifadə və meliorasiya, heyvan sağlamlığı və baytarlıq nəzarəti, eləcə də məşğulluq imkanları ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Panel müzakirəsində Kənd Təsərrüfatı Nazirliyi Aparatının Torpaqdan istifadəyə nəzarət şöbəsinin müdiri Firidun Tağıyev, Aqrar Sığorta Fondunun şöbə müdiri Əli Əhmədov, Kənd Təsərrüfatı Nazirliyi Aparatının Bitkiçiliyin təşkili və monitorinqi şöbəsinin baş məsləhətçisi Elton Məmmədov, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Hacıqabul Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin Suyun balansı və hesabatı şöbəsinin müdiri Bəybala Babayev, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Şirvan-Salyan Regional bölməsinin Heyvan sağlamlığı və baytarlıq nəzarəti sektorunun böyük məsləhətçisi Emin Qədirov və "Unibank"ın Şirvan filialının müdiri Qulyar Əsədov iştirak ediblər.

Müzakirələr çərçivəsində aqrar sahədə fəaliyyət göstərən fermer və təsərrüfat subyektlərinin dövlət dəstəyi mexanizmlərindən səmərəli yararlanması, mövcud imkanlar və bu sahədə qarşıda duran məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

### Əmək yarmarkası təşkil olunub

Hacıqabul Rayon İcra Hakimiyyətinin iclas zalında Dövlət Məşğulluq Agentliyinin Şirvan-Salyan Regional Məşğulluq filialının və "ESE AGRO" QSC-nin birgə təşkilatçılığı ilə əmək yarmarkası keçirilib.

Tədbirin əsas məqsədi işaxtaran vətəndaşların məşğulluq imkanlarının artırılması və onların uyğun vakansiyalarla təmin olunmasına dəstək göstərilməsi olub.

Yarmarkada Hacıqabul Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Saleh Ələskərov, Dövlət Məşğulluq Agentliyinin Şirvan-Salyan Regional Məşğulluq filialının müdiri vəzifəsini icra edən Xaqani Məmmədov və digər rəsmi şəxslər iştirak ediblər.

Tədbir çərçivəsində vətəndaşlara mövcud vakansiyalar barədə ətraflı məlumat verilib, işəgötürənlərlə birbaşa görüş imkanları yaradılıb və işaxtaran şəxslərin müraciətləri qəbul edilib.

***"Azərbaycan"***

*Mənəviyyat mövzusunda*

# Beşik başından laylalarımız niyə perik düşüb?

**...Öz şəxsi minik maşını ilə şəhərdən təbiət qoynuna istirahətə gələn gənc ailənin təxminən bir yaşlı körpəsinin yolda yorulduğundanmı, yoxsa havasını-suyunu dəyişdiyindənmi yuxusu pozulmuşdu. Valideynlərin narahatlığı qonşu kottecdəki yaşlı qadının diqqətindən yayınmadı, odur ki, onlara sarı gəldi.**





- Evdə bu uşağı necə yuxuya verirsən, qızım?, - deyə qadın körpənin anasından xəbər aldı.

Uşağın anası cavab verməyə macal tapınca atası əlində tutduğu mobil telefonun ekranını sığallamaqla oradan mahnı səsi gəldi:

*Dandini, dandini dastana,*
*Danalar girmiş bostana...*

Lakin "bostana girən danalar" balaca oğlanı daha da ürkütdü.

"Ay lüli, ay lüli, ay da lüleçki lüli", - deyə yutubdan dad qoparan rus nənə də uşağı uyuda bilmədi. Növbə çatdı "Beybi şarka". Körpə totuq əlini telefona uzadaraq orada ingiliscə oxuyan qızı sanki özündən uzaqlaşdırmaq istəyirdi.

Öz nəvələri çoxdan böyümüş yaşlı qadın birinci dəfədir belə bir çoxdilli popuri dinlədiyindən mat-məəttəl qalmışdı. Birdən nə fikirləşdisə, əllərini uşağa sarı uzadıb onu anasından aldı, ehmallıca qucağına götürüb kəlağayısının ucu ilə körpənin alnını sığallaya-sığallaya həzin səslə oxumağa başladı:

*Layla dedim yatasan,*
*Qızılgülə batasan,*
*Qızılgüllər içində*
*Şirin yuxu tapasan.*

Göz qapaqları yavaş-yavaş qovuşmağa başlayan körpə elə bil, doğrudan da, qızılgül ətrindən məst olurdu...

Bu, laylalarımızın saçdığı ətir idi. Bu, analarımızın saf duyğularının, balası ilə bağlı tükənməyən arzularının əks-sədası olan bənzərsiz bir nəğmə idi. Bu, ana südü ilə bərabər qanımıza, canımıza hopan sonsuz sevginin, yaşamaq eşqinin ifadəsi, izahı çətin olan bir hikmət, bir həyat fəlsəfəsi idi. Bu, ana laylası idi!

Təəssüf ki, bu gün laylalarımız unudulur. Gənc analar layla deyə bilmirlər, bəlkə də, sadəcə, demək həvəsində deyillər. Mübahisə edə bilərik ki, heç universitetin filologiya fakültəsini bitirmiş, yəni folklorla yaxından tanış olan xanım da balasına layla çalmır. Bunu maraq üçün yeddi gənc ana arasında keçirdiyimiz kiçik sorğu da təsdiqlədi.

*Nərgizi üzüm layla,*
*Telinə düzüm layla,*
*Sən böyü, mən qocalım,*
*Toyunda süzüm layla.*

Bayatı şəklində belə gözəl laylalarımız olduğu halda nə üçün uşaqlarımıza yutub kanallarından əcnəbi mahnılar səsləndiririk? Üzərində düşünməli hal deyilmi?

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Şəhidlərimizin xatirəsinə 3000 ağac əkilib





**27 Sentyabr - Anım Günü münasibətilə "Azərenerji" ASC tərəfindən ağacəkmə aksiyası keçirilib. Aksiya 44 günlük Vətən müharibəsinin başladığı, ilk şəhidlərin verildiyi Cəbrayıl və vaxtilə təmas xətti sayılan digər rayonlarda müharibədən sonra tikilərək istismara verilmiş bəzi yarımstansiyaların ərazilərində təşkil olunub.**

"Şəhidlərimizin xatirəsini yaşatmaq, gələcəyə yaşıl dünya buraxmaq üçün hərəyə bir ağac əkək!" devizi altında keçirilən tədbirin əsas məqsədi Vətən uğrunda canından keçən qəhrəmanların xatirəsini ehtiramla yad etmək, eyni zamanda ətraf mühitin qorunmasına və yaşıllıqların artırılmasına töhfə vermək olub.

Ağacəkmə aksiyasının ən böyük hissəsi Cəbrayıl rayonunda tikilərək bu ilin may ayında istismara verilmiş 330 kilovoltluq "Şəfəq" yarımstansiyasının ərazisində baş tutub. Vaxtilə döyüşlərin getdiyi torpaqlarda bu gün yeni enerji infrastrukturu ilə yanaşı, yaşıllıqların salınması, bölgənin dirçəlişinin və həyatın yenidən bərpasının rəmzi kimi qiymətləndirilir.

Aksiya çərçivəsində 44 günlük Vətən müharibəsində şəhid olmuş qəhrəmanların sayına uyğun olaraq ümumilikdə 3000-ə yaxın ağac əkilib. Beləliklə, hər bir ağac həm şəhidlərimizin əziz xatirəsinin yaşadılmasına, həm də gələcək nəsillərə daha yaşıl və sağlam mühitin ötürülməsinə xidmət edən mənəvi bir ənənəyə çevrilib.

***Nərminə ƏSGƏROVA,***
***"Azərbaycan"***

# İsrail E.Makronun BMT-dəki çıxışına kəskin reaksiya verib

İsrailin Baş naziri Benyamin Netanyahu Fransa Prezidenti Emmanuel Makronun BMT-dəki çıxışına kəskin reaksiya verərək onun açıqlamalarını "qorxunc cəfəngiyyat" adlandırıb.





Belə ki, Makron İsrailin Qərb sahilindəki hərəkətlərini tənqid edib və radikal islamçı HƏMAS qrupunun Fələstin Milli Muxtariyyəti ərazisində heç vaxt fəaliyyət göstərmədiyini bildirib. Makron həmçinin Qəzza zolağındakı vəziyyəti "utancverici bir tamaşa" adlandırıb.

İsrailin Baş nazirinin Ofisi tərəfindən yayımlanan açıqlamada deyilir ki, "Emmanuel Makronun açıqlamalarının qorxunc absurdluğu şokedicidir". Qeyd edilir ki, "HƏMAS yaraqlıları demək olar ki, hər gün yəhudilərə qarşı hücumlar həyata keçirirlər" və mülki vətəndaşları öldürürlər.

İsrailin maliyyə naziri Bezalel Smotriç Emmanuel Makronu "yalan danışmaqda" günahlandıraraq, islamçı təşkilatın bölgədəki israillilərə qarşı hücumlarda böyük rol oynadığını bildirib. İordan çayının qərb sahilinə cavabdeh olan İsrail hərbi diviziyasının keçmiş komandiri, "Yeş Atid" Partiyasının lideri Qadi Ayzenkot da Fransa Prezidentinin açıqlamasının "reallıqdan son dərəcə uzaq" olduğunu bildirib və ərazidəki HƏMAS əməliyyatları ilə şəxsən tanış olduğunu vurğulayıb.

ABŞ-nin İsraildəki səfiri Mayk Hakabi bildirib ki, Emmanuel Makronun BMT Baş Assambleyasındakı çıxışından "reallıqdan daha uzaq bir çıxış təsəvvür etməyin" çətin olduğunu bildirib. Onun fikrincə, HƏMAS həm də Amerika mülki əhalisinin ölümünə görə məsuliyyət daşıyan təşkilatdır.

Makron Fransa Prezidenti kimi BMT Baş Assambleyasındakı sonuncu böyük çıxışını edib. Təxminən 30 dəqiqə ərzində o, çoxtərəfli yanaşmanı müdafiə edib. Fransa Prezidenti Qəzzadan danışarkən, anklavda guya sülhün bərpa olunduğu fikrini xüsusilə tənqid edib və sual verib: "Qəzzadakı vəziyyət qarşısında passiv qalmağa davam etsək, etibarımızı necə qoruya bilərik?" O, sülh təşəbbüslərinin humanitar dəhlizlərin yenidən açılmasına gətirib çıxarmamasından təəssüflənib.

Fransa Prezidenti həmçinin bir daha qeyd edib ki, onun fikrincə, İsraillə yanaşı, Fələstin dövlətinin yaradılması İsrailin və onun xalqının gələcək təhlükəsizliyi üçün vacibdir.

"Orada baş verənlər Fələstin xalqının qanuni mövcudluq hüququna hörmətə əsaslanmalı olan bir layihəni gündən-günə qeyri-mümkün edir", - deyə o bildirib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***




# «Formula-1» Azərbaycan Qran-prisi: Bakı yenidən sürət mərkəzinə çevrilib



**Bakıda «Formula-1» Azərbaycan Qran-prisi start götürüb. Paytaxtın küçələri dünyanın ən nüfuzlu avtomobil yarışlarından birinin iştirakçılarını və minlərlə azarkeşi qəbul edib.**

Bakı Şəhər Halqasında keçirilən yarış ilk gündən yüksək temp, rəqabət və böyük maraqla müşayiət olunub. Pilotlar şəhər trekində bolidlərin imkanlarını yoxlayıb, komanda mühəndisləri isə əldə olunan nəticələri təhlil edərək qarşıdakı sessiyalar üçün hazırlıqlarını davam etdiriblər.

Azərbaycan Qran-prisinin keçirildiyi Bakı trası öz mürəkkəb quruluşu, dar küçələri, kəskin döngələri və uzun sürət hissəsi ilə «Formula-1» təqvimində fərqlənən şəhər traslarından biridir. Tarixi İçərişəhər, Xəzər sahili və müasir Bakı panoraması fonunda keçirilən yarış paytaxtın idman və turizm həyatına da xüsusi rəng qatır.

Qarşıdakı gündə azarkeşləri daha çox sürət, gərgin mübarizə və «Formula-1»in ən maraqlı anları gözləyir.

Qeyd edək ki, "Formula-1" Azərbaycan Qran-prisi sentyabrın 26-dək davam edəcək.

## Corc Rassel hər iki yürüşü ilk sırada başa vurub

**«Formula-1» Azərbaycan Qran-prisində ikinci sərbəst yürüş yekunlaşıb. Yürüşdə hər biri iki pilotdan ibarət 11 komanda mübarizə aparıb.**




"Mercedes"in britaniyalı pilotu Corc Rassel birinci olub. Onun komanda yoldaşı Kimi Antonelli ikinci, "Red Bull"un niderlandlı sürücüsü Maks Ferstappen üçüncü yeri tutub.

Birinci sərbəst yürüşdə də ən yaxşı nəticəni C.Rassel göstərmişdi.

## Paytaxtımızda «Formula-1» rekordu

**«Formula-1» Azərbaycan Qran-prisinin 10-cu – yubiley yarışını izləmək üçün paytaxt Bakıya gələn xarici turistlərin sayı rekord həddə çataraq 16 mini keçib.**



Bakı Şəhər Halqasından verilən məlumata görə, bu, «Formula-1» yarışının Bakıda keçirildiyi dövrdə qeydə alınan ən yüksək göstəricidir. Ötən il Azərbaycan Qran-prisini izləmək üçün paytaxta gələn xarici qonaqların sayı 14 min olub.

Yarışa beynəlxalq marağın artması bilet satışlarında da özünü göstərir. Bu il Azərbaycan Qran-prisinin biletləri 120-dən çox ölkədən olan azarkeşlər tərəfindən alınıb. Bu göstərici yarışın beynəlxalq coğrafiyasının daha da genişləndiyini göstərir.

10-cu Azərbaycan Qran-prisi rekord sayda xarici qonağı Bakıya gətirməklə yanaşı, dünyanın müxtəlif ölkələrindən azarkeşlərin diqqətini Azərbaycan paytaxtına yönəldib.

## "Formula-1" çərçivəsində kütləvi qaçış keçirilib



**Bakıda "Formula-1" Azərbaycan Qran-prisi çərçivəsində "BCC F1 Weekend Run" qaçışı keçirilib.**

Bakı Şəhər Halqasından verilən məlumata görə, tədbirdə təxminən 250 iştirakçı "Formula-1" trekinin 6 kilometrlik tam dövrəsini qət edib. Qaçışda gənclər və idman naziri Fərid Qayıbov da iştirak edib. Qaçış zamanı iştirakçılar "Formula-1" bolidlərinin hərəkət etdiyi istiqamətdə trekin tam dövrəsini qət ediblər.

"BCC F1 Weekend Run" sağlam həyat tərzinin təşviqi, komanda ruhunun gücləndirilməsi və yarış həftəsi ərəfəsində birlik ab-havasının yaradılması məqsədilə təşkil olunub. Tədbirdə əsas məqsəd sürət və nəticə deyil, iştirak, qarşılıqlı dəstək və idmana olan sevgi olub.

Qaçış Qran-pri həftəsinin tədbirlərindən biri olaraq iştirakçılara Bakı Şəhər Halqasını fərqli şəkildə kəşf etmək imkanı yaradıb. Onlar, adətən, tribunadan izlədikləri trekə bu dəfə birbaşa çıxaraq "Formula-1" ab-havasını yaxından hiss ediblər.



## "Formula-2"nin ikinci sıralama turu keçirilib

"Formula-2" Azərbaycan Qran-prisində ikinci sıralama turu başa çatıb. "Rodin"in pilotu Martinius Stenşorne birinci, onun komanda yoldaşı Aleks Dann ikinci, "İnvicta"nın sürücüsü Rafael Kamara üçüncü olub.

Birinci sıralama turunda ən yaxşı nəticəni A.Dann göstərib.

***Hazırladı:***
***Dönməz ABBASOV***

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti
539-49-20

**ALLAH RƏHMƏT ELƏSİN!**

Sumqayıt Şəhər Məhkəməsinin kollektivi məhkəmənin hakimi Fərid Nəsimiyevə atası

**AYDIN NƏSİMİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasi şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3314
Sifariş 1231

Qiyməti 60 qəpik